RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 193 (9072) CÜMƏ AXŞAMI, 8 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Birləşmiş Krallıq Azərbaycanın ən iri ticarət tərəfdaşlarından biridir

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri zati-aliləri xanım Elizabet Trassa

Hörmətli xanım Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallığı ənənəvi dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. Dövlətlərarası əlaqələrimizin, siyasi, iqtisadi-ticari, enerji və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın hazırkı yüksək səviyyəsi və gündən-günə yeni məzmunla zənginləşməsi xüsusi məmnunluq doğurur.

Birləşmiş Krallıq Azərbaycanın ən iri ticarət tərəfdaşlarından biridir. Ölkənizi təmsil edən şirkətlər, o cümlədən neft-qaz hasilatında etibarlı tərəfdaşımız olan BP Azərbaycanda uğurla fəaliyyət göstərir və bir sıra vacib layihələrin həyata keçirilməsində iştirak edirlər. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda uzunmüddətli və məhsuldar işbirliyimiz qlobal enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə aparılan əsaslı bərpa və yenidənqurma işləri tərəfdaşlığımızın əhatə dairəsinin daha da genişlənməsi üçün əlverişli şərait yaratmışdır. Biz bu ərazilərin minalardan təmizlənməsi işinə Birləşmiş Krallığın verdiyi töhfəni yüksək qiymətləndiririk.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, birgə fəaliyyətimizin dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə bir daha təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2022-ci il*



# Zəfərin Ağalı ünvanı

## Növbəti el köçü yurda dönür

**Bu köçün yolunu çoxdan gözləyirdi vətən...**
**Ana vətənə yollanmağın çoxdan həsrətindəydi bu el...**
**Ta 30 ilin o üzündən yola çıxan həsrətyüklü bu köç, nəhayət ki, sevinclə doğma torpağına dönür.**
**Bir zamanlar qurulu evlərindən, bütün yaşamlarından çar-naçar əl çəkərək, yurd-yuvalarını tərk etməyə məcbur qalan vətəndaşlarımız sevinc gözyaşları içərisində dədə-baba yurdlarına qayıdırlar.**
**Vətəndə qəribçilik çəkən bu nisgilli insanlar könüllərində yaşatdıqları qayıdış ümidinin gerçəkləşmə məqamının xoşbəxtliyini yaşayırlar.**
**Haqq uğrundakı savaşımızın Zəfəri sayəsində Qarabağa, Şərqi Zəngəzura sarı yol alan Böyük qayıdışın ilk bəxtəvərləri isə Zəngilanın Ağalı kəndinin sakinləridir.**

→ 4

## Enerji sektorunda səmərəli işbirliyimiz təqdirəlayiqdir

Yaponiyanın Baş naziri zati-aliləri cənab Fumio Kişidaya

Hörmətli cənab Baş nazir!

Bu il biz Azərbaycan Respublikası ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu əlamətdar hadisə ilə əlaqədar Sizi ürəkdən təbrik edir, dost xalqınıza ən xoş və səmimi arzularımı çatdırıram.

Biz Azərbaycan ilə Yaponiya arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Sevindirici haldır ki, ötən dövr ərzində dostluq əlaqələrimiz inkişaf etmiş, iqtisadiyyat, energetika, investisiya, maliyyə və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığımız genişlənmişdir. Yaponiyanı təmsil edən şirkətlər ölkəmizdə bir sıra vacib layihələrə cəlb olunub və uğurla fəaliyyət göstərirlər. Eyni zamanda əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda səmərəli işbirliyimiz təqdirəlayiqdir.

Bu gün ölkələrimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan əlaqələrin və müxtəlif sahələrdə əməkdaşlığımızın daha da dərinləşməsi üçün geniş imkanlar mövcuddur. İnanıram ki, bu imkanlardan istifadə edərək birgə səylərimizlə Azərbaycan-Yaponiya ənənəvi dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da inkişafına və möhkəmlənməsinə nail olacağıq.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2022-ci il*

## Şuşa şəhərində Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şuşa şəhərində yerləşən Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadıqın (Sadıqcanın) yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsə ilkin olaraq 600,0 (altı yüz) min manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2022-ci il*

## Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 3,0 (üç) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2022-ci il*

## Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad olunmuş ərazilərinin yaşayış məntəqələrində (şəhər, kənd, qəsəbə) tikinti, təmir və bərpa işləri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Şərqi Zəngəzur iqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 2,0 (iki) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2022-ci il*



## Quruculuğun baş planları

Qarabağ və Şərqi Zəngəzurun bərpası tikinti normativlərinə və şəhərsalma standartlarına uyğun həyata keçirilir

Torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən 44 günlük müharibədən ötən iki ilə yaxın dövrdə dünya bir daha Azərbaycanın gücünə şahidlik edir.

Belə ki, Azərbaycan dövləti Ermənistanı üçtərəfli bəyannamələrlə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur etmək üçün yürütdüyü qətiyyətli siyasətlə yanaşı, Qarabağ və Şərqi Zəngəzuru sürətlə bərpa edir. 30 ilə yaxın müddətdə işğaldan ziyan çəkən torpaqlarımız sürətlə yenidən qurulur.

→ 7

## "Köhlən atlar" "alman maşını"na qarşı

Bu gün "Qarabağ" Frayburqda Avropa Liqasında ilk oyununa çıxacaq

Ağdam təmsilçisi rəqibin tempini aşağı salmaq üçün daha çox qısa ötürmələrə üstünlük verməlidir. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda rəqibə boş zona yaratmamağa çalışılmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstünlük əldə edə bilər. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi də komandamızın lehinə ola bilər.

→ 8





# 30-a yaxın ölkə, 208 şirkət

→ 6

# Kəlbəcər şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kəlbəcər şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2022-ci il*

# Zəngilan şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2022-ci il*

# Bakı şəhərinin Suraxanı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Suraxanı rayonunun Bülbülə, Əmircan, Hövsan, Qaraçuxur, Yeni Suraxanı və Zığ qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 4,6 milyon (dörd milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 sentyabr 2022-ci il*

# Ceyhun Bayramov ispaniyalı həmkarı ilə görüşüb



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İspaniya Krallığına rəsmi səfəri çərçivəsində sentyabrın 7-də bu ölkənin xarici işlər, Avropa İttifaqı və əməkdaşlıq naziri Xose Manuel Albares Bueno ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniştərkibli görüşdə nazirlər ölkələrimiz arasında bir sıra istiqamətlər üzrə, o cümlədən iqtisadiyyat, ticarət, yüksək texnologiyalar, enerji, elm, təhsil, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar. Bu il Azərbaycanla İspaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu, qarşılıqlı yüksəksəviyyəli səfərlərin və siyasi səviyyədə dialoqun önəmi vurğulanıb.

Nazir Ceyhun Bayramov həmkarına postmünaqişə dövründə bölgədə mövcud olan vəziyyət, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, minaların təmizlənməsi, məcburi köçkünlərin təhlükəsiz şəraitdə evlərinə geri dönmələri üçün görülən işlər, Azərbaycanın bölgədə sülh quruculuğu istiqamətində atdığı addımlar barədə məlumat verib. İşğaldan azad edilmiş ərazilərdə turizm, alternativ enerji, kənd təsərrüfatı və mədən sənayesi sahələrində böyük işlərin görüldüyü və İspaniya şirkətləri ilə geniş əməkdaşlıq üçün perspektivlərin olduğu bildirilib. Bununla yanaşı, Ələt Azad İqtisadi Zonasında sərmayə qoyuluşlarının ikitərəfli münasibətlərə töhfə verəcəyi diqqətə çatdırılıb.

Nazir Xose Manuel Albares Bueno İspaniya şirkətlərinin Azərbaycana sərmayə qoymaqda maraqlı olduqlarını, turizm, ticarət və iqtisadiyyat sahələrində əməkdaşlıq üçün geniş perspektivlərin mövcudluğunu vurğulayıb.

Görüşdə həmçinin Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlığı, enerji və tranzit sahəsində əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparılıb, İspaniyanın ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin inkişafını dəstəklədiyi, növbəti ildən təşkilata sədrlikləri dövründə bu prosesdə daha yaxından iştirak edəcəkləri diqqətə çatdırılıb. Xose Manuel Albares Bueno iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Avropa İttifaqı Komissiyasının prezidenti Ursula Fon der Lyayen arasında imzalanmış Anlaşma Memorandumunun İspaniya üçün yeni əməkdaşlıq perspektivləri açdığını da qeyd edib. "Cənub qaz dəhlizi"ndə İspaniyanın "Enagas" şirkətinin 16 faizlik paya sahib olmasından məmnunluq ifadə edilib.

İspaniyalı nazir Avropa İttifaqının bölgədə vasitəçilik səylərinə dəstək verdiyini, Azərbaycanla Ermənistan arasında sülhün təmin olunmasına töhfə verməyə hazır olduqlarını bildirib.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar və çoxtərəfli formatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüş çərçivəsində nazirlər tərəfindən ADA Universiteti və İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin Diplomatik Məktəbi arasında Memorandum imzalanıb. Bu sənədin ölkələrimizin diplomatik akademiyaları arasında münasibətlərin inkişafına, təhsil sahəsində mübadilələrin artmasına töhfə verəcəyinə əminlik ifadə olunub.

Görüşdən sonra xarici işlər nazirləri mətbuat brifinqində aparılan müzakirələrin nəticələrinə dair bəyanatla çıxış ediblər.

# Ümumdünya Turizm Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlıq perspektivləri müzakirə olunub

Xarici işlər naziri Ceyhun Bayramov İspaniyaya rəsmi səfəri çərçivəsində sentyabrın 7-də Ümumdünya Turizm Təşkilatının (ÜTT) Baş katibi Zurab Pololikaşvili ilə görüşüb.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov Azərbaycanın turizm sahəsinin inkişafına böyük əhəmiyyət verdiyini və bu xüsusda ÜTT ilə əməkdaşlıq əlaqələrinin önəmli olduğunu bildirib. Son illər ərzində ölkəmizdə turizm üzrə infrastrukturun inkişafı istiqamətində genişmiqyaslı işlərin görüldüyünü diqqətə çatdıran nazir Azərbaycanın ölkə və regional səviyyədə turizm sahəsində təhsil və təlim imkanlarının artırılmasında maraqlı olduğunu qeyd edib. Xarici işlər naziri həmçinin ölkəmizin işğaldan azad olunmuş ərazilərində turizm sahəsində imkanlar barədə qarşı tərəfə məlumat verib.

ÜTT-nin Baş katibi Zurab Pololikaşvili Azərbaycanda, habelə regionda turizmin inkişafı potensialının yüksək olduğunu və ölkəmizlə birgə layihələrin həyata keçirilməsinə və tədbirlərin təşkilinə hazır olduqlarını bildirib. Bu xüsusda Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi və aidiyyəti qurumlarla birlikdə təhsil və innovasiya sahələrində proqramların həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə həmçinin Azərbaycanın ÜTT-nin qərarverici orqanlarında təmsilçiliyi, birgə tədbirlərin və konfransların təşkili məsələləri, beynəlxalq təşkilatlarda turizm sahəsində təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Daşkənd şəhərində işgüzar səfərdədir

Sentyabrın 7-də Milli Məclisin Sədri Sahibə Qafarova Qadın Parlament Sədrlərinin 14-cü Sammitində iştirak etmək üçün Özbəkistanın paytaxtı Daşkənd şəhərinə işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında parlament Sədrini Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev və Özbəkistan Respublikasının rəsmi şəxsləri qarşılayıblar.

Spiker Sahibə Qafarova səfər çərçivəsində Qadın Parlament Sədrlərinin 14-cü Sammitinin tədbirlərinə qatılacaq, sessiyada çıxış edəcək və sammitdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşlər keçirəcək. Sammitin sonunda tədbirin yekunlarına dair Daşkənd Bəyannaməsi qəbul olunacaq.

İşgüzar səfər sentyabrın 10-da başa çatacaq.

***"Azərbaycan"***



# Azərbaycanla Özbəkistan arasında əlaqələr son illərdə daha da genişlənib





Özbəkistan Respublikasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 7-də bu ölkənin Ali Məclisi Senatının (Oliy Məclisi Senatı) Sədri Tənzilə Narbayeva ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayan Tənzilə Narbayeva Milli Məclisin Sədrini yenidən öz ölkələrində görməkdən məmnunluğunu ifadə edib. Senatın Sədri ölkələrimiz arasında yüksək səviyyədə olan münasibətlərdən danışıb. O, əlaqələrimizin inkişafında dövlət başçılarının rolunu xüsusi qeyd edərək Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana bu ilin iyun ayında baş tutan dövlət səfərinin münasibətlərimizdə yeni səhifə açdığını söyləyib, dövlət başçıları arasında dostluq və qardaşlıq münasibətlərinin əlaqələrimizə müsbət impuls verdiyini bildirib.

Onun sözlərinə görə, dost ölkələrimiz arasında əməkdaşlığın dinamik inkişafı qanunvericilik orqanları arasında da əlaqələrin daha da genişlənməsini şərtləndirib. Tənzilə Narbayeva xüsusilə son dövrlərdə daha da sıx xarakter alan qarşılıqlı təmasların, səfərlərin bu sahəyə verdiyi mühüm töhfələri vurğulayıb.

O, cari ildə ölkəmizə səfərini məmnunluqla xatırlayaraq səfər çərçivəsində keçirdiyi görüşlərin və aparılan danışıqların əhəmiyyətini qeyd edib, dost və qardaş Azərbaycanda əldə olunan inkişafı yüksək qiymətləndirib. Senatın Sədri Azərbaycanın işğaldan azad etdiyi ərazilərə, o cümlədən Şuşa şəhərinə səfər etdiklərini, ölkəmizin həmin ərazilərdə həyata keçirdiyi yenidənqurma və bərpa işlərini xatırladıb. O, Qarabağın və Şuşa şəhərinin gözəlliyindən danışaraq səfərlə bağlı dərin təəssüratlarını bölüşüb.

Senatın Sədri Tənzilə Narbayeva deyib ki, Azərbaycan xalqı qədim tarixə, zəngin mədəniyyətə malikdir. Özbəkistanda Azərbaycan mədəniyyətinə böyük maraq və sevgi var.

Görüşdə Özbəkistan Ali Məclisi Senatının Sədri Daşkənddə öz işinə başlayacaq Qadın Spikerlərin 14-cü Sammitinə hazırlıq məqsədilə görülən işlər haqqında məlumat verib, Azərbaycan parlamentinin Sədrinin tədbirdə iştirakına görə təşəkkür edib.

Səmimi sözlərə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Milli Məclisin Sədri Sahibə Qafarova dost və qardaş ölkələrimiz arasında əlaqələrin dinamik inkişaf etdiyini bildirib. Spiker Azərbaycan və Özbəkistan arasında münasibətlərin ölkələrimiz müstəqillik əldə etdikdən sonra yeni mərhələyə yüksəldiyini, son illərdə isə daha da genişlənərək tərəflər arasında əməkdaşlığın bir çox sahələri əhatə etdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri münasibətlərimizin inkişafında dövlət başçılarının rolunu və qarşılıqlı səfərləri xüsusi vurğulayaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevin cari ildə Özbəkistana dövlət səfərinin və imzalanmış sənədlərin iki ölkə arasında strateji əməkdaşlığın inkişafı baxımından əhəmiyyətini ifadə edib. Sahibə Qafarova Azərbaycan Prezidentinin Özbəkistana səfəri çərçivəsində Daşkəndin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsinin, onun adını daşıyan meydanın və parkın açılışını Azərbaycan xalqına sevginin təzahürü kimi qiymətləndirib.

Spikerin sözlərinə görə, Azərbaycan və özbək xalqları ortaq tarixə, dil və mədəniyyətə, oxşar ənənələrə malikdir. Bu yaxınlıq bütün sahələrdə əməkdaşlıq üçün geniş imkanlar yaradır. Ölkələrimizin bütün məsələlərdə bir-birinə dəstək verdiklərini bildirən Milli Məclisin Sədri xüsusilə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi məsələsində Özbəkistanın hər zaman bizim yanımızda olduğunu vurğulayıb.Qeyd olunub ki, bu gün bir çox beynəlxalq təşkilatlarda ölkələrimiz bir-birinin mövqeyini dəstəkləyir.

Sahibə Qafarova parlamentlərimiz arasında əməkdaşlığın dövlətlərimiz və xalqlarımız arasında yüksəksəviyyəli əlaqələrin ruhuna uyğun olaraq dinamik inkişaf etdiyini bildirib. O, cari ildə özünün Özbəkistana, Tənzilə Narbayevanın isə Azərbaycana səfərlərini, həmçinin müxtəlif beynəlxalq tədbirlər çərçivəsində tərəflər arasında keçirilən görüşləri xatırladaraq əlavə edib ki, "Azərbaycan Respublikasının Milli Məclisi ilə Özbəkistan Respublikasının Ali Məclisinin Senatı arasında əməkdaşlıq haqqında Saziş"in, habelə parlamentlərarası əməkdaşlığın inkişafına dair "Yol xəritəsi"nin imzalanması tərəflərin qarşılıqlı əlaqələrin inkişafına verdiyi önəmin bariz göstəricisidir.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi quruculuq işləri barədə məlumat verən Milli Məclisin Sədri deyib ki, Azərbaycan hazırda öz imkanları hesabına ən müasir texnologiyaları tətbiq edərək həmin əraziləri yenidən qurur. Bu gün Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı kimi nüfuzlu beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir. O, Şuşa şəhəri və Qarabağın digər bölgələri haqqında xoş sözlərinə görə Tənzilə Narbayevaya təşəkkür edib, həmçinin işğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan tərəfindən orta məktəbin inşa edilməsinə görə minnətdarlığını bildirib. Spiker bunu dost münasibəti kimi qiymətləndirib.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi ilə bağlı ictimai dinləmə keçiriləcək

Milli Məclisin Sədri Sahibə Qafarovanın tapşırığına əsasən, parlamentdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üzərində iş davam edir.

Ölkəmizdə dövlət qeydiyyatına alınmış 39 siyasi partiya yeni qanun layihəsi ilə bağlı təkliflərini artıq Milli Məclisə təqdim edib. Yeni qanun layihəsinin hazırlanması prosesində 20-dən artıq ölkənin bu sahədə təcrübəsi və Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələri də nəzərdən keçirilib.

"Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin geniş müzakirəsi məqsədilə Milli Məclisdə ictimai dinləmələrin keçirilməsi nəzərdə tutulur. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, ilk ictimai dinləmənin cari il sentyabrın 28-də keçirilməsi gözlənilir. İctimai dinləmə zamanı səsləndiriləcək fikirlər, o cümlədən irəli sürüləcək təkliflər nəzərdən keçiriləcək.

***"Azərbaycan"***

# Fövqəladə Hallar Nazirliyində müşavirə keçirilib



Sentyabrın 7-də Fövqəladə Hallar Nazirliyində (FHN) nazir general-polkovnik Kəmaləddin Heydərov və ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin birgə iştirakı ilə meşələrdə yanğın təhlükəsizliyi məsələlərinin müzakirəsinə həsr olunmuş müşavirə keçirilib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə fövqəladə hallar nazirinin müavini Tapdıq Əmiraslanov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, hər iki nazirliyin aidiyyəti struktur bölmə və qurumlarının rəhbər heyəti iştirak edib.

Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov keçirilən müşavirənin əhəmiyyətinə toxunaraq, son dövrlər ölkəmizdə baş vermiş meşə yanğınları və onların səbəbləri barədə məlumat verib. Nazir qeyd edib ki, qlobal iqlim dəyişikliyi fonunda havaların uzun müddət isti, quraq keçməsi və antropogen amillərin təsiri ilə təəssüf ki, bu il də ölkəmizin müxtəlif bölgələrində meşə yanğınları baş verdi. Nazir xatırladıb ki, mürəkkəb relyefli dağlıq ərazilərdə baş vermiş yanğınların söndürülməsi əlavə çətinliklərlə müşayiət olunsa da, Fövqəladə Hallar Nazirliyi çox sayda qüvvə və vasitələr səfərbər edərək əlaqədar qurumlarla əlaqəli şəkildə yanğınların söndürülməsinə nail olunub. Meşə yanğınları ilə kompleks mübarizənin effektli təşkil edilməsi üçün aidiyyəti dövlət orqanları arasında koordinasiyalı fəaliyyətin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayan nazir K.Heydərov meşə yanğınlarının profilaktikası və meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində təkliflərin hazırlanaraq müvafiq qaydada təqdim edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsinin rəhbərliyi altında hər iki nazirliyin əməkdaşlarından ibarət birgə işçi qrupun yaradılmasını təklif edib.

Sonra müşavirədə çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev meşə yanğınları ilə mübarizənin səmərəliliyinin daha da artırılması üçün bu kimi birgə məsləhətləşmələrin əhəmiyyətini qeyd edib. O, rəhbərlik etdiyi nazirliyin meşə yanğınlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat verib, ekoloji tarazlığın qorunub saxlanılması məqsədilə atılan addımlardan danışıb. Meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi sahəsində qurumlararası birgə fəaliyyətin genişləndirilməsi ilə daha yaxşı nəticələrin əldə olunacağına əminliyini ifadə edən nazir M.Babayev birgə işçi qrupun yaradılması təklifini yüksək qiymətləndirdiyini bildirib.

Daha sonra yay aylarında meşələrdə baş vermiş yanğınlar və onların söndürülməsi əməliyyatlarına dair FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi daxili xidmət general-mayoru Füzuli Əsədov, meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində aidiyyəti üzrə görülən tədbirlər barədə Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisi daxili xidmət general-mayoru Hikmət Abbasov çıxış ediblər.

Sonra FHN-in Rəqəmsal texnologiyalar və innovasiyaların inkişafı Baş idarəsi rəisinin birinci müavini Nicat Əliyev pilot layihə olaraq tətbiqinə start verilmiş fövqəladə halların intellektual idarəetmə sisteminin meşə ərazilərində yanğın təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar imkanları barədə təqdimat edib.

Sonda müşavirənin yekunu olaraq, meşələrdə yanğın təhlükəsizliyinin təmin edilməsi istiqamətində kompleks təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsinin rəhbərliyi ilə hər iki nazirliyin əməkdaşlarından ibarət birgə işçi qrupun yaradılması barədə qərar qəbul olunub.

# Naxçıvanda payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirilib





Sentyabrın 7-də Naxçıvan Muxtar Respublikasında 2022-2023-cü illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq deyib ki, enerji, ərzaq təhlükəsizliyi, sabitliyin qorunması vacib məsələlərdir. Ona görə də bugünkü müşavirədə veriləcək tapşırıqlar yerlərdə müzakirə edilməli və qarşıya qoyulan vəzifələrin icrasına nəzarət olunmalıdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev, Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin rəisi Ramin İsmayılov payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış ediblər.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov və Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev aidiyyəti üzrə məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək aidiyyəti üzrə tapşırıqlar verib, qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulayıb.

# "TurAz Qartalı-2022" təlimində növbəti uçuşlar icra olunub

Ölkəmizdə keçirilən "TurAz Qartalı-2022" birgə taktiki-uçuş təliminin planına uyğun olaraq növbəti təlim-məşq uçuşları icra olunub.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ssenariyə əsasən şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınma və yerüstü hədəflərinə havadan zərbə endirmə tapşırıqları hərbi pilotlar tərəfindən uğurla yerinə yetirilib.

Birgə taktiki-uçuş təlimi davam edir.

# Azərbaycanla Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü qeyd edilib



Sentyabrın 7-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan XİN-in rəhbər heyəti, Milli Məclisin üzvləri, Yaponiyanın ölkəmizdəki səfirliyinin əməkdaşları, Azərbaycanda fəaliyyət göstərən yapon şirkətlərinin nümayəndələri, elmi-akademik dairələrin təmsilçiləri, eləcə də digər qonaqlar iştirak ediblər.

Tədbir hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Sonra çıxış edən Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov Ümummilli Lider Heydər Əliyevin 1998-ci ilin fevral ayında Yaponiyaya tarixi səfərinin iki ölkə arasında yüksəksəviyyəli dialoqun qurulmasında mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdıraraq münasibətlərin hazırda uğurla inkişaf etdiyini bildirib. O, bu il ərzində XİN-lərarası siyasi məsləhətləşmələr və hökumətlərarası iqtisadi komissiyanın növbəti iclaslarının uğurla keçirildiyini qeyd edib. İkitərəfli münasibətlərin dərinləşməsində parlamentlərarası əməkdaşlığın rolunu xüsusi vurğulayan Elnur Məmmədov ölkələrimiz arasında mövcud qarşılıqlı anlaşma mühitinin, əlaqələrin daha da möhkəmlənməsi, mövcud olan böyük potensialın həyata keçirilməsi üçün münbit şərait yaratdığını ifadə edib. Yaponiya tərəfinin azad olunmuş ərazilərimizin bərpası prosesində iştirakı məmnunluqla vurğulanıb.

Daha sonra çıxış edən Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada iki ölkənin coğrafi olaraq bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, Yaponiya ilə Azərbaycan arasında bu cür mehriban münasibətlərin, qarşılıqlı hörmət və etimadın qurulmasının təqdirəlayiq olduğunu bildirib. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında qarşılıqlı səfərlərin müstəsna rolu olduğunu qeyd edən səfir Cuniçi Vada, Azərbaycan və Yaponiya arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi, mədəni, humanitar sahələrdə birgə layihələrin həyata keçirildiyini məmnunluqla vurğulayıb.

Tədbirdə həmçinin Azərbaycan ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Prezident İlham Əliyev və Yaponiyanın Baş naziri Fumio Kişida, habelə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Yaponiyanın xarici işlər naziri Yoşimasa Hayaşinin məktublarının mübadiləsi baş tutub.

Sonda iştirakçılar Azərbaycan ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Quru Qoşunlarında olub

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Quru Qoşunlarında olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Baş Qərargah rəisi Quru Qoşunlarının idarə heyəti ilə xidməti müşavirə keçirib.

Müşavirədə Quru Qoşunlarında görülən işlərin təhlili aparılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar toplantı iştirakçılarına çatdırılıb.

Müdafiə nazirinin birinci müavini döyüş hazırlığının və hərbi qulluqçuların peşəkarlıq səviyyələrinin daha da artırılması, silahlanmaya yeni qəbul edilən silah və döyüş texnikasının effektiv tətbiqi məqsədilə keçirilən təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılması və texnoloji innovasiyalardan istifadə edilməsi ilə əlaqədar müdafiə nazirinin göstərişlərini aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

Müşavirədən sonra Döyüşü İdarəetmə Məntəqəsinə (DİM) gələn Baş Qərargah rəisinə məruzə olunub ki, burada müasir döyüş üsulları nəzərə alınaraq digər qoşun növləri ilə qarşılıqlı əlaqədə komanda idarəetmənin təşkili üçün zəruri infrastruktur yaradılıb. Sonra general-polkovnik K.Vəliyev, müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev, Milli Müdafiə Universitetinin rektoru general-leytenant Heydər Piriyev və digər yüksək rütbəli zabitlər Quru Qoşunlarının Ümumqoşun Təlim Mərkəzinə gələrək ilk dəfə təşkil edilən "Zabit komando başlanğıc kursu"na cəlb olunan gənc leytenantlarla görüşüblər.



Baş Qərargah rəisinə məruzə olunub ki, hərbi qulluqçuların taktiki-xüsusi hazırlıqlarının inkişaf etdirilməsi məqsədilə keçirilən məşqlər müasir döyüş üsulları nəzərə alınmaqla tədris olunur.

Ordumuzun Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılması istiqamətində görülən tədbirlər çərçivəsində gənc zabitlərin komando kursuna cəlb olunmasının hərbi qulluqçuların peşəkarlıq səviyyələrinin artırılmasına müsbət təsir göstərəcəyi xüsusi qeyd edilib.

Daha sonra yaşayış məntəqələrində döyüş və məntəqələrin şərti düşməndən təmizlənməsi tapşırığının icrası üzrə təlim epizodları izlənilib.

Gənc zabitlər qarşısında çıxış edən Baş Qərargah rəisi onlara hərbi elmlərə yiyələnmək, eləcə də fiziki hazırlıqlarını artırmaqla peşəkar və nizam-intizamlı komandir kimi formalaşaraq gələcəkdə tabeliklərindəki şəxsi heyətə nümunə olmaları istiqamətində tövsiyələr verib, gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonda general-polkovnik K.Vəliyev hərbi qulluqçuların qayğıları ilə maraqlanıb və onlarla birgə nahar edib.

# Mədəniyyət naziri ABŞ-da yaşayan azərbaycanlı diaspor nümayəndələri ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 7-də ölkəmizdə səfərdə olan ABŞ-da yaşayan azərbaycanlı diaspor nümayəndələrindən ibarət heyəti qəbul edib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycana gələn Amerika-Azərbaycan Cəmiyyətinin rəhbəri Tomris Azəri, cəmiyyətin üzvləri Nigar Pənahova və Seva Əzimova, məşhur rəqs şirkətinin icraçı direktoru Andryu Çanq, türkəsilli amerikalı jurnalist Cemil Fatih Özyurt və digərləri iştirak ediblər.

Nazir qonaqları səmimi salamlayaraq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor nümayəndələrinin mühüm rolu olduğunu vurğulayıb.

Anar Kərimov bu ilin may ayında ABŞ-a səfəri çərçivəsində BMT-nin Baş Qərargahında, eləcə də bu ölkənin bir sıra mədəniyyət müəssisələrində keçirilən görüşlər barədə məlumat verib. Deyib ki, ABŞ-da yaşayan diasporumuz Azərbaycan mədəniyyətinin tanıdılmasında böyük rol oynayır. Nazir mədəniyyət sahəsində əməkdaşlıqda, eləcə də mədəni irsimizin təbliğində diaspor təşkilatlarının dəstəyinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidentinin "Bakı Prosesi" qlobal təşəbbüsü və Mədəniyyət Nazirliyi tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace4Culture) beynəlxalq çağırışı barədə də nümayəndə heyətinə məlumat verən Anar Kərimov deyib ki, çağırışın əsas məqsədi postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhə töhfə verməkdən ibarətdir.

Səmimi qəbula görə nazirə təşəkkürünü bildirən diaspor nümayəndələri Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən tədbirlərdə iştiraklarından məmnunluqlarını ifadə ediblər. Bundan sonra da mədəniyyətimizin təbliğinə yönələn layihələrə dəstək olacaqlarını vurğulayıblar.

# Diaspor nümayəndələrinin Şuşaya növbəti səfəri başa çatıb

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və təşkilatçılığı ilə tətillərini Azərbaycanda keçirməyə üstünlük verən 19 ölkədən 70-ə yaxın diaspor nümayəndəsinin Şuşaya növbəti səfəri başa çatıb.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizin mədəniyyət paytaxtına aparan yolboyu əllərində Azərbaycan bayraqlarını dalğalandıran soydaşlarımız öz sevinclərini Qarabağa həsr olunmuş xalq və bəstəkar mahnılarını birgə oxumaqla nümayiş etdiriblər.

"Biz dəmir yumruğun gücü ilə Şuşadayıq" layihəsi çərçivəsində yeddinci dəfə gerçəkləşən səfər çərçivəsində diaspor nümayəndələri şəhərin baş meydanı "Bazarbaşı"nı, Cıdır düzünü, erməni vandalizminə məruz qalmış "Güllələnmiş heykəllər"in olduğu meydanı, Şuşa Bəyannaməsinin imzalandığı məkanı, Xurşidbanu Natəvanın evini, "Xan qızı bulağı"nı, Molla Pənah Vaqifin məqbərəsini, Gəncə Qapısını, Saatlı, Aşağı və Yuxarı Gövhər ağa məscidlərini və digər görməli yerləri ziyarət edib, postmüharibə dövründə qədim şəhərimizdə aparılan yenidənqurma və abadlıq işləri ilə tanış olublar.

Səfərin sonunda ənənəyə uyğun olaraq diaspor nümayəndələri Cıdır düzündə Azərbaycan bayrağı açıb, "Qarabağ Azərbaycandır! şüarını səsləndirib və "Yallı" sədaları altında rəqs ediblər. Onlar bu xoşbəxtliyi xalqımıza bəxş edən Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusuna təşəkkür ediblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayında səsləndirdiyi tövsiyələrdə xaricdə yaşayan soydaşlarımızın hər il tarixi vətənlərini, xüsusilə də azad edilmiş torpaqlarımızı ziyarət etməsinin önəminə diqqət cəlb edilib.

Diasporla İş üzrə Dövlət Komitəsi 2021-ci ildə dörd dəfə (27 iyul, 17 avqust, 9 oktyabr və 2 dekabr), 2022-ci ildə iki dəfə (26 iyul və 17 avqust) diaspor nümayəndələrinin Şuşa şəhərinə səfərlərini təşkil ediblər.

"Biz dəmir yumruğun gücü ilə Şuşadayıq!" şüarı altında reallaşan səfərlərin "Şuşa ili"ndə davam etdirilməsi Azərbaycan diaspor tarixinə yazılmış ən mühüm hadisələrdən biridir.

# Pakistanlı jurnalistlər Füzuli rayonuna səfər ediblər

Pakistanlı jurnalistlər işğaldan azad olunmuş Füzuli rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, qonaqlara ərazidəki dağıntılar, yenidənqurma və bərpa işləri barədə məlumat verilib. Onlar yaşayış məskənlərində, dini və tarixi abidələrdə törədilmiş erməni vandalizminin şahidi olublar.




# *Ombudsman:* "Beynəlxalq hüquq normalarının tətbiqində ikili standartlar yolverilməzdir"

Polşanın paytaxtı Varşavada ATƏT regionuna daxil olan milli insan hüquqları institutları rəhbərlərinin iclası çərçivəsində sessiyalar keçirilib. Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva sessiyalarda müzakirə zamanı çıxış edib.



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, S.Əliyeva Birinci Qarabağ müharibəsindən sonra Azərbaycan tərəfinin etdiyi çoxsaylı çağırışlara baxmayaraq, təcavüzkar Ermənistana qarşı qəti tədbirlərin görülməməsinin beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüququn normalarının pozulmasına səbəb olduğunu qeyd edib. Otuz ilə yaxın müddətdə BMT-nin icra olunmamış məlum dörd qətnaməsinin Azərbaycan tərəfindən təkbaşına yerinə yetirildiyi, nəticədə ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün bərpa edildiyi diqqətə çatdırılıb. Azərbaycan ombudsmanı beynəlxalq hüquq normalarının tətbiqində ikili standartların yolverilməz olduğunu vurğulayıb.

Bununla yanaşı, ombudsmanın İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş insan hüquq pozuntularına dair hesabat, bəyanat və müraciətlər toplusu, habelə Ombudsman Aparatı tərəfindən hazırlanmış insan hüquqlarının müxtəlif sahələri ilə bağlı çap vəsaitləri tədbir iştirakçıları arasında paylanılıb.



QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR
dirçəliş yolundadır







# Zəfərin Ağalı ünvanı

## Növbəti el köçü yurda dönür



Əvvəli 1-ci səh.

### Tariximizin ən möhtəşəm səhifələrindən birini məhz o gün qürurla çevirdik

Tariximizin ən möhtəşəm səhifələrindən birini məhz 19 iyul 2022-ci ildə qürurla çevirdik. O gün vaxtilə Ağalıdan zorla didərgin salınan insanlarımız vətənə əbədi yaşamağa döndülər. Zəngilanı, Ağalını yalnız böyüklərin xatirələrindən, solğun fotolardan tanıyıb sevən yeni nəsillərimiz bu torpaqda yaşayıb-yaratmağa, tikib-qurmağa, bu torpağa daha dərin köklərlə sarılaraq düşmənə çəpər olmağa getdilər.

O gün Azərbaycan xalqı Ağalıya dönən insanların timsalında Vətən həsrətindən qurtulan, "məcburi köçkünlük yükü"ndən azad olan insanların necə böyük sevinc, ilahi hisslər yaşadığının şahidi oldu, onlarla birlikdə qəhərlənib, onlarla birlikdə güldü...

O gün xalqımızın gözlərindən axan sevinc gözyaşları ağ yollarla, üçrəngli ay-ulduzlu qələbə bayraqlarımızla bəzənmiş qayıdış karvanlarıyla yurdumuza dönən ağalıların arxasınca pak su çilədi...

### Yeni həyata atılan ilk addımlar

"Böyük qayıdışın birinci kiçik addımı, bax bu gün atılır".

Bizə tarixi torpaqlarımıza qayıdışın tezliklə gerçəkləşəcəyi müjdəsini Prezident İlham Əliyev Müstəqillik günündə verdi.

Mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasiminin keçirilməsi zamanı dövlət başçısı İlham Əliyev Ağalı kənd sakinləri ilə görüşü zamanı söylədi ki, "Bu gün Böyük qayıdış dediyimiz prosesə start verildi".

Bəli, bu xoş xəbərin üzərindən qısa zaman ötəndən sonra artıq Ağalı sakinlərinin köçkünlük həyatları başa çatdı, birqərinəlik mənəvi məhrumiyyətlərdən sonra ömürlərinin yeni mərhələsinə qədəm qoydular. Bəxtəvər çağlara, firavan həyata qanad açdılar...

İyulun 19-dan etibarən Zəngilanın Ağalı kəndinə əhalinin dörd mərhələdə köçürülməsinə start verildi. Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan şəhərciyi"ndən dördüncü köç karvanı isə iyulun 25-də Ağalıya yola salındı. Daha 10 ailə - 58 nəfər yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşdılar.

Ümumilikdə "ağıllı kənd" konsepsiyasına uyğun olaraq yenidən qurulan











Ağalı kəndinə 4 mərhələdə köçürülən 41 ailə, 201 nəfər hər cür şəraitlə təmin olundu.

Beləliklə, Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsi uğurla başa çatdırıldı.

### Qayıdışın ikinci mərhələsinə start verildi

Ötən gün isə Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsinə start verildi. Məcburi köçkünlərin 12 ailədən (63 nəfər) ibarət növbəti qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən "Zəngilan şəhərciyi"ndən Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salındı.

Böyük qayıdışa uyğun olaraq ikinci mərhələdə daha 25 ailənin (125 nəfər) köçürülməsi planlaşdırılır. Digər 13 ailə (62 nəfər) isə sentyabrın 10-da Ağalı kəndinə köçürüləcək.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin verdiyi məlumata görə, Ağalı kəndinə köçürüləcək ailələr Bakı, Sumqayıt və Abşeron rayonlarında qəzalı binalarda, sanatoriyalarda, yataqxanalarda müvəqqəti məskunlaşmış ailələrdir ki, onların da içində Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin sakinləri var. Həmin ailələr isə mövcud qanunvericiliyə əsasən, püşkatma əsasında ailə tərkibinə uyğun olaraq evlərlə təmin ediliblər.

Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan ailələr yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşacaqlar.

Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar. Burada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll edilir.

İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

### Ağalı kəndinin yeni növrağı

Ağalı kəndi Azərbaycanda ilk "ağıllı kənd" konsepsiyası ilə qurulmuş möhtəşəm məkandır. Pilot olaraq Zəngilanda icra edilməsinə başlanılan layihə əsasında burada 200 evdən ibarət "ağıllı kənd" salınıb. Növbəti mərhələdə kənddə daha 150 mənzilin inşası nəzərdə tutulur. Ağalı kəndində reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri - yəni 5 komponent üzrə aparılıb. İnşa edilən 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

"Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub. Eləcə də "ağıllı kənd"də "Gill-med" Tikiş Fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi tikilib.

Ağalıda aqrar sektorun inkişafına xüsusi önəm verilib. Kəndin kənarında yerləşən böyük əkin sahəsində pilot sistemlər quraşdırılıb.

Ağalı əhalisinin məşğulluğunun təmin olunması üçün işlər davam etdirilir.

### Nəhayət ki, vətəndən doğma hənir gəlir...

İki aya yaxındır ki, Ağalı əzəli sakinlərinə qovuşub.

Birqərinəlik ayrılığın ardından ağalılar əbədi yurdlarına dönüblər.

Hər açılan sabahı, doğan günəşi buradan xoşbəxtcəsinə salamlayırlar, günə sevinclə başlayıb, sevinclə yekun vururlar.

İndi Ağalıdan top-tüfəng səsi deyil, yenicə pöhrələnmiş ağacların yamyaşıl budaqlarında cəh-cəh vuran quşların, azadlıq nəğməsi oxuyan ruzigarların sədası ucalır, isti yuvasında körpəsinə laylay çalan anaların ünü gəlir...

Nəhayət ki, vətəndən - Ağalıdan doğma hənir gəlir...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

*Şıxnəsib MAHMUDOV:*

## "Ağalıya getdiyimiz üçün həm həyəcan, həm də sevinc hissləri keçiririk"

Biz bu gün doğma yurdumuza qayıdırıq. Ağalıya getdiyimiz üçün həm həyəcan, həm də sevinc hissləri keçiririk.



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Ağalıya köçən kənd sakini Şıxnəsib Mahmudov söyləyib. O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz bu gün doğma yurdumuza qayıdırıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin!

Şıxnəsib Mahmudov deyib: "Dünən əşyalarımızı maşınlara yığarkən çox qəribə hisslər keçirdim. Çünki 30 ilə yaxın müddətdə yaşadığım evdən ayrılıram. Amma buna baxmayaraq, sevinirəm ki, doğma torpağımıza qayıdırıq".

*Fazil SƏLİMOV:*

## "Bu gün uzun illərdir gözlədiyimiz an yetişdi, biz Ağalıya qayıdırıq"

Biz 1993-cü ildən məcburi köçkünlük həyatı yaşayırıq. Allaha şükürlər olsun ki, bu gün doğma yurdumuza qayıdırıq. Dövlətimizə təşəkkür edirik ki, bizim Ağalıya köçməyimiz üçün şərait yaradır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Ağalıya köçən kənd sakini Fazil Səlimov söyləyib.

29 ildir doğulduğu yerdən kənarda yaşadığını bildirən Fazil Səlimov deyib: "Bu illər ərzində çox çətinliklərlə üzləşdik. Problemlərə baxmayaraq, bu gün uzun illərdir gözlədiyimiz an yetişdi, biz Ağalıya qayıdırıq".

"Torpaqların azad olunmasında canından keçmiş qəhrəman Vətən övladlarına rəhmət diləyirəm. Allah Prezidentimizi, ordumuzu qorusun", - deyən F.Səlimov fikirlərini yekunlaşdırıb.



*Dövlət komitəsinin rəsmisi:*

## "Ağalı kəndinə köçürülən ailələr püşkatma əsasında müəyyən ediliblər"

Bu gün Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsi həyata keçirilir. Ümumilikdə bu mərhələdə 25 ailə (125 nəfər) Zəngilanın Ağalı kəndində yeni evlərlə təmin olunacaq.



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mətbuat xidməti departamentinin direktor müavini Nazilə Alməmmədova söyləyib. O qeyd edib ki, bu gün daha 12 ailə Ağalı kəndinə köçürüləcək. İkinci mərhələnin növbəti köçü isə sentyabrın 10-da olacaq.

"Ağalı kəndinə köçürüləcək ailələr Bakı, Sumqayıt və Abşeron rayonlarında qəzalı binalarda, sanatoriyalarda, yataqxanalarda müvəqqəti məskunlaşmış ailələrdir ki, onların da içində Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin sakinləri var. Həmin ailələr isə mövcud qanunvericiliyə əsasən, püşkatma əsasında ailə tərkibinə uyğun olaraq evlərlə təmin ediliblər", - deyə Nazilə Alməmmədova bildirib.

*Ağalı sakini:*

## "Köçən sakinlərin Zəngilana sağ-salamat getməsini arzu edirəm"

Mən Zəngilandan ayrılanda 13 yaşım vardı. İndi isə balaca övladımın 13 yaşı var və biz doğma torpağımıza-Ağalıya qayıdırıq. Bəlkə də, bu bir qismətdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə müsahibəsində Ağalıya köçən kənd sakini Məhərrəm Orucov söyləyib.

"Mən doğulub boya-başa çatdığım yerlərə qayıtdığım üçün çox sevinirəm. Bizə bu sevinci yaşadan Prezident İlham Əliyevə, Azərbaycan Ordusuna təşəkkür edirik. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı arzulayıram", - deyə M. Orucov vurğulayıb.

O əlavə edib: "Köçən sakinlərin Zəngilana sağ-salamat çatmasını arzu edirəm".



*Ağalının gənc sakini:*

## "Kəndimizə köçmək məni həm sevindirir, həm də qürurlandırır"

"Bu gün mən atamın yaşadığı Zəngilan rayonunun Ağalı kəndinə köçürəm. Ata yurdumuza getdiyim üçün çox xoşbəxtəm. Həmin yerləri görməsəm də, dərslərdə bizə Qarabağ haqqında məlumatlar verilirdi. Lakin mən özüm də Qarabağ haqqında araşdırmalar etmişəm, oranın necə olması ilə maraqlanmışam".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ağalıya köçən 16 yaşlı Aytən Orucova bildirib.

Aytən Orucova söyləyib: "Mən hər zaman işğaldan azad edilən ərazilərdə olmaq istəmişəm. Bu gün isə arzularım reallaşdı. Ağalıya köçmək məni həm sevindirir, həm də qürurlandırır".

A.Orucova Ağalı kəndinə böyük maraq və sevinc hissi ilə getdiyini əlavə edib.



# İŞİMİZ, GÜZƏRANIMIZ

**Azərbaycan iqtisadiyyatının dinamik inkişafında kapital qoyuluşu önəmli rol oynayır. İqtisadçılar bu faktora xüsusi diqqət yetirirlər. Onlar hesab edirlər ki, mütəmadi investisiya qoyuluşunu həyata keçirmədən iqtisadi inkişafa nail olmaq mümkün deyil. Bu üzdən ölkəmizdə sərmayə qoyuluşu daim diqqət mərkəzindədir.**



## Şaxələndirmə həm də yeni iş yerləri, yaxşı həyat şəraiti deməkdir

### Qeyri neft-qaz sektoruna getdikcə daha çox sərmayə qoyulur

Prezident İlham Əliyevin iqtisadi islahatlar konsepsiyasında kapital qoyuluşu önəmli yer tutur. Xüsusilə xarici investisiyaları cəlb etmək üçün mükəmməl qanunvericilik bazası yaradılıb. Azərbaycan münbit investisiya mühitinə görə dünyada ön sırada qərar tutan ölkələrdəndir. Bu üzdən Azərbaycan keçmiş sovetlər birliyində ən çox xarici sərmayə qoyulan ölkədir.

Xarici investorlar neft sənayesinə kapital qoyuluşunu həyata keçirərkən sərmayələrin qorunmasına dövlət tərəfindən zəmanət verildiyi təsdiq olundu. Qısa zamanda hamı anladı ki, Azərbaycanda iqtisadiyyatın bütün sahələrinə qoyulan sərmayə qanunla qorunur. Beləliklə, xarici sərmayədarlar ölkəmizə qeyri-neft və özəl sektora sərmayə qoymağa başladılar. İndi dünyada baş verən mürəkkəb siyasi və iqtisadi proseslərə baxmayaraq, iqtisadiyyatımıza xarici kapitalın qoyuluşu davam edir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyul aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 1873,9 milyon manat vəsait yönəldilmişdir. Bu vəsaitin 1758,1 milyon manatı Birləşmiş Krallıq, İsveçrə, ABŞ, Yaponiya, Türkiyə, Norveç, Rusiya, İran, Hindistan və Fransa sərmayədarlarına məxsus olmuşdur.

7 ayı əhatə edən hesabatda həmçinin qeyd edilir ki, ölkəmizin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7301,7 milyon manat vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 15,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 12,5 faiz artmışdır. Həmin dövrdə istifadə olunan ümumi sərmayənin 4492,6 milyon manatı məhsul istehsalı sahələrinin, 2355,5 milyon manatı xidmət sahələrinin, 453,6 milyon manatı isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür. Yatırılan sərmayənin çox hissəsindən məhsul istehsalı sahələrində istifadə edilməsi təqdirəlayiq haldır. Belə ki, bu sahəyə yönəldilən vəsait iqtisadiyyatın dinamik inkişafını stimullaşdırır.

Yatırılan ümumi sərmayənin 44,7 faizi dövlət, 55,3 faizi qeyri-dövlət sektorunun səhmdarları tərəfindən qoyulmuşdur. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 74,3 faizini təşkil etmişdir.

Hesabat dövründə daxili mənbələrdən və özəl sektor tərəfindən kapital qoyuluşunun üstünlük təşkil etməsi müsbət haldır. Birincisi, dünyada baş verən indiki siyasi və iqtisadi proseslərlə əlaqədar qlobal miqyasda sərmayə qoyuluşunda durğunluq yaranıb. Çünki heç kəs bu işin sonunun nə ilə nəticələnəcəyini bilmir. İkincisi isə, özəl sektorun bu sahədəki aktivliyi onu deməyə əsas verir ki, Azərbaycanda sahibkarlıq inkişaf edib.

Kapital qoyuluşunun mənbəyi çoxşaxəlidir. Belə ki, hesabat dövründə əsas kapitala yönəldilmiş vəsaitdə müəssisə və təşkilatların vəsaitləri 3972,6, büdcə vəsaitləri 2164,8, əhalinin şəxsi vəsaitləri 567,8, sair vəsaitlər 362,2, bank kreditləri 234,3 milyon manat təşkil etmişdir.

Qeyd edildiyi kimi, hesabat dövründə qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 12,5 faiz artmışdır. Bu sektora daha çox kapital qoyuluşu Prezident İlham Əliyevin apardığı iqtisadi islahatlarla bağlıdır. Dövlət başçısı dəfələrlə vurğulamışdır ki, ölkənin neft-qaz sektorundan asılılığını azaltmaq üçün qeyri neft-qaz sektorunun inkişafında qərarlıyıq. Prezidentimiz sentyabrın 2-də İtaliyada nəşr olunan "İl Sole 24 Ore" qəzetinə verdiyi müsahibəsində demişdir: "Şaxələndirməyə gəldikdə isə, əlbəttə ki, ixracımızı şaxələndirməyimizdən asılı olmayaraq, bizim qeyri-neft və qeyri-qaz ixracımız neft və qaz ixracına uyğun gəlməyəcək. Çünki neft və qaz ixracı artır. Məsələn, keçən il biz İtaliyaya 9,6 milyard dollar, bu ilin 7 ayında isə 11 milyard dollar həcmində təbii qaz ixrac etmişik. Qazın qiyməti düşdü. Beləliklə, şaxələndirmə bizim üçün ümumi daxili məhsulda öz əksini tapan statistika deyil, o, xalqımız üçün iş yerləri təmin etmək və yaxşı həyat şəraiti yaratmaq deməkdir. Məsələn, bu ilin altı ayındakı ümumi daxili məhsulumuza baxsanız, nə görəcəksiniz? Ümumi daxili məhsul 6,2, qeyri-enerji sektorunda isə demək olar ki, 10 faiz, qeyri-enerji ilə bağlı sənayedə isə 11 faizdən çox artıb, qeyri-enerji ixracı 25 faiz artıb. Beləliklə, bu göstərir ki, artım göz qabağındadır, ancaq bu, kifayət deyil. Buna görə də bizim daha çox islahatlara, qeyri-enerji sektorunda daha çox sərmayəyə və bunun üçün də, əlbəttə ki, biznes mühitinə ehtiyacımız var. Əlbəttə ki, o sahədə irəliləyişlər var".

Kapital qoyuluşu ölkədə yeni istehsal, xidmət və sosial obyektlərin tikintisinə geniş imkanlar açır. Bunun nəticəsidir ki, cari ilin yanvar-iyul aylarında Bakıda Tədris və Xidmət Kompleksi, "Xanım Fatmeyi-Zəhra" məscidinin yeni binası, "Qobu" Yarımstansiyası və "Qobu" Elektrik Stansiyası, Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzi, Azərbaycan İlahiyyat İnstitutunun təzə binası, 7 saylı "ASAN xidmət" Mərkəzi, "Bilim Bakı" Mərkəzi, Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 304 nömrəli tam orta məktəb, şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksi tikilib, 110/35/10 kilovoltluq elektrik yarımstansiyası istismara daxil olub. 7 ay ərzində eləcə də Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzi, 2 saylı Sumqayıt Regional "ASAN xidmət" Mərkəzi, Gəncə Dövlət Dram Teatrının yeni binası, Gəncə Regional "ASAN xidmət" Mərkəzi, Gəncə Lokomotiv Deposu, Ağcabədidə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi şəhərciyi, Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi, Kəlbəcərdə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası və digər mühüm əhəmiyyətli obyektlər tikilərək istifadəyə verilib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Ağstafada kənd təsərrüfatı işlərinin gedişi ilə bağlı müşavirə keçirilib



Ağstafada kənd təsərrüfatı işlərinin gedişi ilə bağlı müşavirə keçirilmişdir. Müşavirədə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək regionların sosial-iqitisadi inkişafı Dövlət Proqramından irəli gələn vəzifələrlə əlaqədar görülmüş işlərdən, aqrar sahənin inkişafı istiqamətlərindən, bu sahədə fermer və sahibkarlara göstərilən dövlət qayğısından danışmışdır.

Sonra Ağstafa Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Ramiz İmanov rayonda kənd təsərrüfatı sahəsində görülən işlərlə bağlı hesabat məruzəsi ilə çıxış etmişdir. Mərkəzin direktoru rayon ərazisində taxıl səpininin, yazlıq-payızlıq əkinlərin, yoncalıqların və örüş sahələrinin ümumi vəziyyəti, heyvandarlıq, arıçılıq, baramaçılıqla bağlı görülmüş işlər barədə ətraflı məlumat verərək diqqətə çatdırmışdır ki, əvvəlki illərdə olduğu kimi, cari ildə də rayonun fermer təsərrüfatları yüksək göstəricilərə nail olmuşlar. Hazırda kənd təsərrüfatının bəzi sahələrində məhsul yığımı davam edir və torpaq sahibləri yetişdirdikləri məhsulu sonadək toplamaq üçün əllərindən gələni əsirgəmirlər.

Müşavirədə aqrar sahədə innovativ texnologiyaların geniş tətbiqi ilə məhsuldarlığın artırılması və inkişafı yolları, payızlıq şumun mövcud durumu, suvarma suyu, gübrə, texnika təminatı ilə bağlı məsələlər geniş şəkildə müzakirə olunmuşdur. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən müşavirədə fermerləri maraqlandıran məsələlərə də aydınlıq gətirilmiş və irəli sürülmüş təklif və müraciətlər nəzarətə götürülmüşdür.

Müzakirələr zamanı o da vurğulanmışdır ki, rayonun təsərrüfat sahibləri dövlətin göstərdiyi diqqət və qayğını hər zaman hiss edirlər. Təkcə 2019-cu ildən bu günədək 11802 fermer Elektron Kənd Təsərrüfatı İnformasıya Sistemində qeydiyyatdan keçmiş və dövlətin ayırdığı subsidiyalarla təmin olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Avropa Yenidənqurma və İnkişaf Bankı ilə kapital bazarlarının infrastrukturu müzakirə edilib

Sentyabrın 7-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) nümayəndələrinin iştirakı ilə Bakı Fond Birjasında (BFB) görüş keçirilib.

BFB-dən bildirilib ki, görüşdə kapital bazarlarının infrastrukturu, ilkin və təkrar bazarlar üzrə perspektiv və bu sahədə görüləcək işlər haqqında ətraflı müzakirələr aparılıb.

## Koreya şirkətinə Azərbaycanda həyata keçirilən investisiya layihələri barədə məlumat verilib

Cənubi Koreyanın "Hyundai Engineering & Construction Co LTD" şirkətinin regional direktoru Yanq Han Qyu İxracın və İnvestisiyaların Təşviqi Agentliyində (AZPROMO) olub.

AZPROMO-dan bildirilib ki, görüşdə Azərbaycanda yaradılmış əlverişli investisiya mühiti və imkanları, həyata keçirilən investisiya layihələri barədə məlumat verilib, "Hyundai Engineering & Construction Co"nun reallaşdırılan investisiya layihələrində iştirak imkanları barədə fikir mübadiləsi aparılıb, şirkətlə İxracın və İnvestisiyaların Təşviqi Agentliyi arasında əməkdaşlıq perspektivləri müzakirə olunub.

## KOBİA və Yaponiyanın JICA təşkilatı gələcək birgə layihələrlə bağlı fikir mübadiləsi aparıblar



Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) Şərqi və Mərkəzi Asiya, Qafqaz üzrə Baş departamentinin direktor müavini Hideki Tanabenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

KOBİA-dan bildirilib ki, görüşdə KOB-lara dəstək və xidmət sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üçün agentliyin beynəlxalq təşkilatlarla, o cümlədən JICA ilə əməkdaşlığa önəm verdiyi vurğulanıb, birgə layihələrin həyata keçirilməsinə, Yaponiyanın müvafiq qurumları ilə əlaqələrin genişləndirilməsinə dəstəyə dair fikir mübadiləsi aparılıb.

## Zeytun yağının ixracı planlaşdırılır



2022-ci ilin iyul ayında Azərbaycanın zeytun yağı istehsalçısı "Grand Agro" MMC ilə Rusiya, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iri distribütor şirkətləri arasında ixraca dair müqavilələr imzalanıb.

İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) bildirilib ki, müqavilələrə əsasən, yaxın günlərdə "Grand Agro" MMC tərəfindən "Extra Virgin" zeytun yağının "Olivea" brendi ilə qeyd edilən ölkələrə ixrac edilməsi planlaşdırılır.

Qeyd edək ki, "Grand Agro" MMC Azərbaycanda 2500 hektara qədər ərazisi olan ən böyük zeytun plantasiyalarının sahibidir.

## Bu ilin 8 ayında pensiya ödənişlərinə 3 milyard 276 milyon manat yönəldilib

2022-ci ilin yanvar-avqust aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 5,9 faiz (182 milyon manat) çox olmaqla 3 milyard 276 milyon manat vəsait yönəldilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu ilin əvvəlindən minimum aylıq pensiya daha 20 faiz artırılaraq 240 manata çatdırılıb, pensiyaların sığorta hissəsi indeksləşdirilib, pensiyaçılara maddi yardımlar ayrılıb. 1,2 milyon pensiyaçını əhatə edən həmin artımlar üçün illik 440 milyon manat əlavə vəsaitin ayrılması təmin edilib.

Bu ilin 8 ayında 18,6 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 66,9 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## "Azərbaycanda pensiya islahatlarına dəstək" tvininq layihəsinin ikinci mərhələsinə başlanılıb

Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıqda icra olunan "Azərbaycanda pensiya islahatlarına dəstək" tvininq layihəsinin ikinci mərhələsinə başlanılıb. Layihənin Rəhbər Komitəsinin bununla əlaqədar keçirdiyi iclasda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Aİ-nin Azərbaycandakı nümayəndəliyinin, layihənin birgə icra olunacağı Litvanın Sosial Müdafiə və Əmək Nazirliyinin, tvininq layihəsinin nümayəndələri iştirak ediblər.

İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov son illər ölkəmizdə aparılan pensiya islahatlarını və həmin islahatlar nəticəsində pensiyalarda ardıcıl xarakter alan ciddi artımları, pensiya təminatı sisteminin təkmilləşdirilməsi sahəsində atılan addımları diqqətə çatdırıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, davamlı islahatlar nəticəsində son 4 ildə minimum pensiyanın 2,2 dəfə, orta aylıq pensiyanın 75 faiz, yaşa görə orta aylıq pensiyanın 70 faiz artdığı qeyd olunub. Pensiya təminatı sistemində sosial sığorta prinsiplərinin daha da gücləndirilməsi ilə yanaşı, bu sistemin humanist yanaşmalar əsasında təkmilləşdirilərək əhatə dairəsinin genişləndirilməsi, əlçatanlığın artırılması istiqamətində mühüm irəliləyişlər əldə edilib. 2019-cu ilin əvvəlindən isə pensiyaların avtomatlaşdırılmış qaydada təyinatına başlanılıb və ötən dövrdə 70 minədək pensiyanın elektron sistem üzərindən proaktiv qaydada təyinatı həyata keçirilib.

İkinci mərhələsinə başlanılan tvininq layihəsi də ölkəmizdə pensiya sisteminin təkmilləşdirilməsi sahəsində islahatlara, bu islahatların qabaqcıl təcrübələr əsasında həyata keçirilməsinə dəstək məqsədi daşıyır.

Layihənin yeni mərhələsində pensiya sahəsi üzrə beynəlxalq təcrübəyə uyğun aktuar modellərin və proqnozlaşdırma metodlarının hazırlanmasında nazirliyin potensialının artırılmasına, proaktiv təyinat mexanizmləri üçün elektron institusional məlumat bazasının sistemləşdirilməsinə dəstək veriləcək.

Həmçinin layihə pensiya təminatı sistemində əlavə hüquq və imtiyazların demoqrafik göstəricilərə uyğunlaşdırılması üçün müvafiq mexanizmlərin tətbiqinin tənzimlənməsini, təhlil keyfiyyətinin artırılmasını və s. hədəfləyir.

İclasda Aİ nümayəndəliyinin layihə meneceri Rza Zülfüqarzadə, Litvanın Sosial Müdafiə və Əmək Nazirliyinin nümayəndəsi Audrius Bitinas, rezident tvininq məsləhətçisi Audrone Morkuniene və başqaları çıxış ediblər.

## Azərbaycan Xorvatiyada "Viro Expo-2022" Beynəlxalq Sərgisində təmsil olunub



Xorvatiyanın Baş naziri Andrej Plenkoviçin iştirakı ilə "Viro Expo-2022" İqtisadi, Peşə və Kənd Təsərrüfatı Beynəlxalq Sərgisinin açılışı olub. Müxtəlif yerli və xarici şirkətlərin qatıldığı sərgi iş adamları və biznes dairələri arasında əlaqələrin yaradılması üçün mühüm əhəmiyyət daşıyır.

Sərgidə iştirak edən ölkəmizin stendində Azərbaycanın Xorvatiyadakı səfirliyi tərəfindən kitablar və açıqcalar, o cümlədən Polşada fəaliyyət göstərən Azərbaycan Ticarət Evi tərəfindən göndərilmiş və ölkəmizdə istehsal olunmuş müxtəlif çeşidli qablaşdırılmış məhsullar, içkilər nümayiş etdirilib.

Sərgi zamanı ölkəmizə məxsus kitablar, suvenirlər, spirtli içkilər, meyvə şirələri, müxtəlif çeşidli kənd təsərrüfatına aid qablaşdırılmış konservlər iştirakçıların böyük marağına səbəb olub.

Qeyd edək ki, COVID-19 pandemiyası ilə əlaqədar bir neçə dəfə təxirə salınan "Viro Expo" sərgisinə regionda yerləşən ölkələrin tanınmış firma və şirkətləri qatılaraq istehsal etdikləri müxtəlif çeşidli mal və avadanlıqları nümayiş etdirirlər.









# 30-a yaxın ölkə, 208 şirkət

## Bakıda keçirilən silah və hərbi texnika sərgilərində Zəfərdə müstəsna rol oynamış hərbi-sənaye kompleksimizin gücü, qüdrəti nümayiş olunur

**Sentyabrın 6-da "Bakı-Ekspo" Mərkəzində Bakıda IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" Sərgisi işə başlayıb.**

Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilən tədbirin təşkilati işlərinin icrası "Caspian Event Organisers" şirkətinə həvalə edilib. Sərgilərdə 30-a yaxın ölkədən 208 şirkət təmsil olunur. İştirakçılar arasında Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri var. Bu tədbirə ilk dəfə İordaniyadan olan şirkətlər də qatılıblar. Bu il 8 ölkə milli stendləri ilə iştirak edir.

Qeyd edək ki, Prezident İlham Əliyev "Bakı-Ekspo" Mərkəzində olaraq sərgilərlə tanış olub. Müdafiə naziri general-polkovnik Zakir Həsənov, müdafiə sənayesi naziri Mədət Quliyev, Türkiyənin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler dövlət başçısına sərgi haqqında ətraflı məlumat veriblər.

Əməkdaşlarımız da tədbirin ikinci günündə "Bakı-Ekspo" Mərkəzinə yollanıb və nümayiş etdirilən hərbi texnikalar, müasir silahlarla yerində tanış olublar.













### Ölkəmiz hərbi sənayenin inkişafına böyük önəm verir

Mərkəzin birinci və üçüncü zallarında Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda yerli istehsal olan yeni silahlar, döyüş sursatları, yüngül və ağır hərbi texnikalar nümayiş olunur. Sərgiyə baş çəkənlər buradakı eksponatlar sayəsində hazırda Azərbaycan Ordusunda istifadə olunan və ən son istehsal edilən hərbi texnikalarla tanış ola bilərlər. Burada hərbi təyyarə və aviasiya sistemləri, dəniz gəmiləri və hərbi dəniz sistemləri, zirehli döyüş nəqliyyat vasitələri, radioelektron sistemlər, C4ISR, optik-elektron avadanlıq və sistemlər, pilotsuz sistemlər, hərbi geyim və ləvazimatlar, simulyatorlar və təlim sistemləri, radiasiya, kimyəvi və bioloji müdafiə (RKB), hərbi təşkilatlar, ixracın təşviqi ilə məşğul olan müəssisələr təmsil olunurlar.

Azərbaycan Vətən müharibəsindən sonra hərbi sənayenin inkişafı istiqamətində kompleks işləri davam etdirir. Ümumilikdə hərbi sahədə kadrların hazırlanması, bu sahənin təkmilləşdirilməsi yönündə qonşu ölkələrlə birgə layihələr həyata keçirilir, qoşunların birgə təlimləri baş tutur, həmçinin yeni hərbi sursatların istehsalı, alınması istiqamətində əməkdaşlığı genişləndirir. Bu baxımdan sərgilərdə ən maraq doğuran yeni istehsal olunan hərbi sursatlar idi.

Diqqətimizi çəkən silahlardan biri 30 mm-lik avtomatik top "AT-30" silahı oldu. Silah haqqında məlumat verməmişdən əvvəl bildirək ki, hər bir texnika haqqında məlumat almaq üçün stendlərin yanında bələdçilər var idi. Bu baxımdan sərgini ziyarət edənlər diqqətlərini çəkən hər hansı texnika barədə həmin şəxslərdən məlumat ala bilərlər. Eyni zamanda məlumat lövhəsində də texnikalar haqqında qısa informasiya yer almışdı, daha geniş məlumat üçün isə lövhədəki QR koddan istifadə kifayət edir.

İndi isə qayıdaq silah haqqında məlumata. Öyrəndik ki, yeni istehsal "AT-30" 1500 metrə qədər məsafələrdə yerləşən yüngülzirehli hədəflər və tank əleyhinə raket kompleksləri, uzaq məsafədə yerləşən canlı qüvvə və zirehli vasitələr üçün nəzərdə tutulub. Silah eyni zamanda 2000 metrə qədər hündürlükdə və 2500 metrə qədər maili uzaqlıqda, səs sürətindən az sürətlə uçan hava hədəfləri ilə mübarizə aparmaq, yüngül səhra tipli sığınacaqlar arxasında yerləşən atəş vasitələri və canlı qüvvəyə uzaq məsafədə yerləşən zirehsiz və qrup hədəfləri ilə mübarizə üçündür.

### "ZƏRBƏ-BK1", "Yırtıcı"

Sərgidə nümayiş etdirilən məhsullardan biri isə "ZƏRBƏ-BK1" aviasiya sursatı idi. 25 kq döyüş elementləri olan birdəfəlik aviasiya konteyneri hava qüvvələri tərəfindən yerüstü hədəfləri sıradan çıxarmaq üçün yaradılıb.

Pavilyonda diqqətimizi çəkən yerli istehsal olan silahlardan biri isə snayper tüfəngidir. 7.62x54 millimetrlik "Yırtıcı" adlandırılan silah peyda olan, hərəkət edən, gizlənmiş tək hədəfləri məhv etmək üçün hazırlanıb.

Qeyd edək ki, sərgidə başqa yeni silahlarla da qarşılaşdıq. Bunlardan biri 12,7 mm-lik iriçaplı pulemyotdur. Silah 2000-3000 metr arasında qısa və uzun qatarlarla atəş açma xüsusiyyətinə malikdir. Pulemyot düşmənin canlı qüvvəsinin və yüngül istehkamlarının dağıdılması üçün nəzərdə tutulub. Silahda 12,7 və 108 diametrli güllələrdən istifadə olunur.

Azərbaycan hərbi sahədə inkişaf etmiş ölkələrlə əməkdaşlığa böyük önəm verir. Bu ölkələr arasında Türkiyə, Pakistan, İsrail xüsusi yer tutur. Müdafiə sənayesi naziri Mədət Quliyev də sərginin açılış mərasimində jurnalistlərə açıqlamasında deyib ki, Türkiyə, İsrail və Pakistanla hərbi-texniki sahədə əməkdaşlıq prioritet istiqamətlərdəndir: "Dünyada ən güclü silahlar həm Türkiyə, həm də İsraildə hazırlanır. Bu gün Azərbaycan Türkiyə ilə birlikdə elə silahların üzərində çalışır ki, onların istifadəsi 10-20 ildən sonra nəzərdə tutulur. Hazırda genişmiqyaslı addımlar atılır. Şirkətlər çoxdur, onlarla bir yerdə işləyirik. Burada 200-dən çox şirkət iştirak edir".

### Əməkdaşlıq nümunəsi

Qardaş Türkiyənin bu sahədə olan inkişafı göz qabağındadır. Türkiyə hərbi sahədə daim yeniliklərə imza atır. Müdafiə sənayesində ən müasir və qabaqcıl texnologiyalardan geniş istifadə edir. Bunu İkinci Qarabağ savaşındakı böyük qələbəmizin qazanılmasında müstəsna xidməti olan, adı dillərdən düşməyən "Bayraktar- TB2" pilotsuz uçuş aparatının nümunəsində də görmək mümkündür.

Türkiyənin hərbi sənayedəki inkişafı sərgilərdə də özünü göstərir. Belə ki, qardaş ölkəni sərgidə 42 şirkət təmsil edir. Şirkətlər arasında "ASELSAN", "HAVELSAN", "AYESAS", "OTOKAR", "ROKETSAN" və digərləri yer alıb. Sərgidə Azərbaycan və Türkiyə əməkdaşlığı nəticəsində ortaya çıxan nümunələr də diqqətimizi çəkdi. Bu, Müdafiə Sənayesi Nazirliyi və Türkiyənin "ASELSAN" şirkətinin birgə layihəsi əsasında hazırlanan "QFAB-250 LG" HE bombasıdır. Çəkisi 250 kq olan qəlpəlifuqaslı aviabomba daha dəqiq nişan alma özəlliyinə malikdir. Hərbi texnika, qurğu, hərbi sənaye və energetika obyektlərini, anbarları, canlı qüvvəni və digər hədəfləri məhv etmək üçün nəzərdə tutulub.

Bildirək ki, sərgilərdə Azərbaycanı 22 şirkət təmsil edirdi. Bu şirkətlər arasında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA), Milli Aerokosmik Agentliyi, Kosmik Agentliyi ("Azərkosmos"), Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutu, "Hava Hücumundan Müdafiə Silahlarının və Hərbi Texnikaların Servis Xidməti" MMC və başqaları yer alıb.

### "ADEX"in əhatəliliyi

Sərgidə hərbi texnikalar, silahlarla yanaşı, hərbi geyimlər, eyni zamanda bəzi şirkətlər tərəfindən əsgər yeməkləri nümayiş olunurdu. Həmçinin müxtəlif universitet tələbələrinin də bu sahədə yeni layihələri ilə tanış olmaq imkanı yaradılıb. Bakı Mühəndislik Universitetinin Elektronika mühəndisliyi fakültəsinin III kurs tələbəsi Ələddin Qoçuzadənin təqdim etdiyi layihə haqqında məlumatlarını dinlədik. O bildirdi ki, nümayiş olunan robot mina axtarmaq üçün nəzərdə tutulub. Robot mina axtarmaqdan əlavə, kamera vasitəsilə kəşfiyyatda da ola bilir: "Kəşfiyyatda olduğu zaman tapdığı əsgərlərlə dialoqa girə bilir. Əsgərlə dialoq qura bilmədiyi halda onun bədən temperaturu barədə məlumatı bazaya ötürür. Robot birbaşa bazadan kompüterlə idarə olunur".

Gənc nəslin bu sahəyə marağı, yeni ideyalar əsasında hazırlanan məhsullar, həyata keçirilən layihələr Azərbaycanın hərbi sənaye üçün böyük imkanlar açdığını, burada gənc beyinlərin maraqlı layihələrinə diqqət ayrıldığını göstərir.

### Sərgi ölkələr arasında yeni əməkdaşlıq əlaqələrinin qurulmasına töhfə verir

Məlumat üçün bildirək ki, sərgi Azərbaycanın Vətən müharibəsindəki Zəfərindən sonra ilk dəfə təşkil olunur. Tədbirdə nümayiş olunan yeni məmulatlar bir daha göstərir ki, Azərbaycan bu müddətdə hərbi sənayenin inkişafı istiqamətində addımlar atır, müdafiə sahəsində əməkdaşlığa önəm verir.

Beynəlxalq "ADEX" hərbi sərgisi regionda müdafiə sənayesi və daxili təhlükəsizliyə həsr olunmuş ən nəhəng tədbirdir və iştirakçılara həm Azərbaycanın hərbi rəhbərliyi, həm də qlobal hərbi-müdafiə ictimaiyyəti ilə görüşlər keçirmək üçün unikal imkan yaradır, həmçinin ölkələr arasında yeni əməkdaşlıq əlaqələrinin qurulmasına töhfə verir. Bu, özünü sərgi çərçivəsində bir sıra ölkələrlə Azərbaycan arasında hərbi-texniki sahədə əməkdaşlığın əsasının qoyulmasına dair razılıqlarda da göstərir. Bundan başqa, müdafiə nazirləri səviyyəsində bir sıra rəsmi görüşlər keçirilir, hərbi əməkdaşlıq məsələləri müzakirə olunur.

Sərgi milli təhlükəsizlik məhsullarının təqdim edilməsi üçün ideal platforma olmaqla yanaşı, həm də bu sektorun iştirakçıları, ziyarətçiləri və ekspertləri arasında təcrübə mübadiləsinə, o cümlədən məhsulların regional müdafiə sənayesi bazarının tələblərinə uyğun olaraq modernləşdirilməsinə şərait yaradır. "ADEX" dünyanın bir sıra qabaqcıl dövlətlərinin nüfuzlu şirkət, təşkilat, qurum və nümayəndə heyətlərini bir araya gətirməklə respublikamızın və xarici ölkələrin güc strukturlarına ən müasir hərbi texnologiyaların, geniş çeşiddə silah və sursatların, o cümlədən bu sahədə bir sıra yeniliklərin təqdim edilməsində mühüm rol oynayır.

"Securex Caspian" sərgisi də beynəlxalq səviyyəli tədbir olaraq hüquq-mühafizə orqanları, eləcə də sərhəd, xilasetmə və xüsusi təyinatlı xidmətlər üçün nəzərdə tutulmuş perspektiv texnika nümunələrinin, habelə inteqrasiya olunmuş təhlükəsizlik sistemləri və silahların nümayişi üçün ideal platformadır. Sərgi əməkdaşlığın inkişafı və təcrübə mübadiləsi üçün əlverişli şərait yaradır və dövlətdaxili, ictimai və vətəndaş təhlükəsizliyinin təmin olunması üzrə tətbiqi tapşırıqların həllinə kömək edir.

"ADEX" və "Securex Caspian" sərgiləri üçün geniş işgüzar proqram hazırlanıb. Sərgilərin keçiriləcəyi üç gün ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərinin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar keçirilir.

Bu möhtəşəm beynəlxalq sərgi də bir daha Azərbaycanın böyük, əhəmiyyətli tədbirlərə necə evsahibliyi etdiyini göstərir. Bununla yanaşı, sərgi Azərbaycanı dünyada tanıdaraq bu sahədə yerli istehsala olan marağı yüksəldir. Bununla da ölkəmiz müdafiə sənayesi sahəsində də ixrac potensialını artırır.

### Azərbaycan müdafiə qabiliyyətini daha da gücləndirəcək

Prezident İlham Əliyev IV Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına müraciətində də dediyi kimi, XXI əsrin müharibəsini aparmış Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi bu gün inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində diqqətlə öyrənilir. Dövlət başçısı müraciətində bildirib ki, Azərbaycanın tarixi qələbəsi göstərdi ki, hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün müasir ordu quruculuğu, ölkənin hərbi qüdrətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi son dərəcədə əhəmiyyətlidir:

"Azərbaycan Respublikası öz silahlı qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir. Ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir. Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır", - deyən İlham Əliyev əlavə edib ki, qarşıdakı dövrdə də müasir silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsalına xüsusi diqqət yetirməklə Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik.

"ADEX-2022" sərgisi də bu istiqamətdə faydalı təcrübə mübadiləsinin aparılmasına, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına əlverişli imkan yaradaraq, ölkəmizin müdafiə sənayesinin elmi-texnoloji potensialının artırılmasına müsbət töhfəsini verəcək.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*









# Quruculuğun baş planları

## Qarabağ və Şərqi Zəngəzurun bərpası tikinti normativlərinə və şəhərsalma standartlarına uyğun həyata keçirilir

*Əvvəli 1-ci səh.*

### İlham ƏLİYEV: "Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır"

Azad olunmuş ərazilərimizdə aparılan yenidənqurma işlərinin fonunda bütün dünya Azərbaycanın təkbaşına, yalnız öz daxili imkanları hesabına necə əzəmətli və nəhəng layihələr həyata keçirdiyini görür. Qarabağ və Şərqi Zəngəzurun bərpası isə kompleks xarakter daşıyır. Həm bütün infrastrukturlar yenidən qurulur, həm yaşayış yerləri salınır, həm də kənd təsərrüfatı bərpa olunur, istehsal sahələri yaradılır.

Hələ Vətən müharibəsinin davam etdiyi günlərdən başlanan bərpa və quruculuq işlərinin başa çatan qismi olduqca möhtəşəmdir. Füzuli Hava Limanı, "Zəfər yolu" kimi meqalayihələrin yerinə yetirilməsi, Zəngilanda Ağalı kəndinin bərpası, yeni su elekrik stansiyalarının, yarımstansiyaların istifadəyə verilməsi, Şuşa şəhərindəki yeniliklər təsdiq edir ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması işləri sürətlə gedir.

Qarabağ və Şərqi Zəngəzurun bərpasında diqqəti çəkən əsas məqamlardan biri isə quruculuq işlərinin ən müasir texnoloji əsaslarla, smart və ya "ağıllı" konsepsiyalar çərçivəsində həyata keçirilməsidir. Məsələn, Zəngilan rayonunun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən bərpa prosesində tətbiq olunan "ağıllı kənd" layihəsi smart quruculuğun mükəmməl nümunəsidir. Layihəyə uyğun olaraq bərpa işlərində ən müasir şəhərsalma standartları tətbiq olunur.

Onu da qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin bərpası milli prioritetdir. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlarımıza mütəmadi səfərləri də göstərir ki, dövlət başçısı bu məsələni xüsusi diqqət və nəzarətində saxlayır. İlham Əliyevin azad olunmuş bölgələrə hər səfəri yeni layihələrin təməlinin qoyulması ilə əlamətdar olur.

Dövlət başçısı bərpa və quruculuq işləri ilə bağlı daim prioritetləri açıqlayır, tapşırıq və tövsiyələrini verir. Prezidentin bu məsələdə vurğuladığı əsas məqamlardan biri odur ki, işlər kortəbii yox, planlı və sistemli şəkildə aparılmalı, bərpa ediləcək hər bir kəndin Baş planı olmalıdır. "Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq Baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq" - deyə dövlət başçısı bildirib.

### "Yaşıl enerji", "ağıllı şəhər" kimi müasir yanaşmalar tətbiq olunur

Baş plan şəhərin uzunmüddətli perspektiv inkişafını təyin edən əsas şəhərsalma sənədidir. Baş planın hazırlanması şəhər ərazi vahidi daxilində məskunlaşma ərazilərinin planlaşdırılmasını nəzərdə tutur. Baş plana şəhərətrafı ərazilərdə ayrı-ayrı yaşayış məntəqələri də daxil edilir ki, bu ərazilərə də məskunlaşma prosesinin tələbləri şamil edilir.

Artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl və Kəlbəcər şəhərlərinin baş planları təsdiq edilib. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri zamanı bu planlar təqdim olunub. Hər bir baş plan hazırlanarkən şəhərin özünəməxsusluğu və coğrafiyası nəzərə alınıb. Məsələn, Şuşa şəhərinin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Plana əsasən mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində həyata keçiriləcək və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Ağdam şəhərinin ərazisinin 30 faizi əhalinin 70 faizini əhatə edəcək. Əhalinin 30 faizi fərdi evlərdə yaşayacaq. Şəhərdə 1750 fərdi ev, 23 min mənzil olacaq. Kommunikasiya, magistral və dəmir yolları, meliorasiya xətləri bir-biri ilə vəhdət halında qurulacaq. Yeni Baş plana əsasən Ağdam şəhərinə 8 kənd birləşdirilib. Ağdam şəhərinin əhalisi 36 min nəfər təşkil edib. Birləşdirilən kəndləri və əhalinin artımını da nəzərə alsaq, şəhər əhalisi 50 mindən yuxarıdır. Dövlət başçısının tapşırığına uyğun olaraq, şəhər 100 min nəfər əhali üçün planlaşdırılıb. Şəhərdə elektriklə işləyən tramvaylar da işləyəcək. Ağdamın ətrafı isə bağlarla əhatə olunacaq.

Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

O cümlədən Füzuli, Cəbrayıl Zəngilan şəhərlərinin Baş planlarında yaşayış yeri, məşğulluq üçün imkanlar və ictimai-sosial rifah kimi konseptual əsaslar dayanır. Şəhərlərin hər biri mənzərəli landşaftı, ictimai məkanları, sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Bu mənada Baş planların hazırlanması zamanı regionda müasir tələblərə cavab verən yeni infrastrukturun qurulması, şəhərlərə tezliklə qayıdacaq əhalinin yüksək yaşayış standartlarının, təhlükəsizliyinin, iş imkanlarının və yaşayış məntəqələrinin dayanıqlı inkişafının təmin olunması prioritet götürülüb, aparıcı dünya təcrübəsi öyrənilərək tətbiq edilib, "yaşıl enerji", "ağıllı şəhər" və bir çox digər müasir şəhərsalma yanaşmaları tətbiq olunub. Eyni zamanda bu şəhərlərin hər biri strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "İlahiyyat" jurnalı çap olunub

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) "İlahiyyat" elmi-publisistik jurnalının növbəti - VI buraxılışı işıq üzü görüb. On üç rubrikadan ibarət olan buraxılışda öz sahəsinin peşəkar mütəxəssisi olan elm adamlarının, həmçinin Aİİ-nin tələbə və məzunlarının yazıları yer alıb. Jurnalın budəfəki sayı "Rəsmi guşə" rubrikası ilə başlayır.




Rubrikada "Ramazan bayramı münasibətilə Prezident İlham Əliyevin Azərbaycan xalqına təbriki" və "Prezident İlham Əliyev Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib" başlıqlı yazılar yer alıb.

"Dəyərlərimiz" rubrikasında Aİİ rektoru Aqil Şirinovun "Heydər Əliyev və dəyərlərimiz", Milli Məclisin deputatı Ceyhun Məmmədovun "Milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyevin rolu" və Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovun "Müştərək şüur - ortaq dəyər" sərlövhəli məqalələri dərc edilib."İslam əxlaqı" rubrikasında "İslam dinində insanın Allah qarşısında vəzifələri və məsuliyyəti" adlı məqalə dərc olunub.

"Xurafat və mövhumatsevərlik haqqında", "Din və ekologiya", "Dini plüralizmin əsasları", "Mürciənin təşəkkül dövrü və inkişafı" və "Qiyamət günü haqqında" başlıqlı məqalələr jurnalın "Cəmiyyət və din" rubrikasında yer alıb.

"İngilis dili dərslərində tələbələrin davranış pozuntuları"; "Uşaqları düzgün tərbiyə etmənin yolları (1-3 yaş qrupu)" sərlövhəli məqalələr "Tədris" rubrikasında dərc edilib.

"Şuşa - düyünlənmiş yumruğumuzdur"; "Milli-mənəvi sərvətimizsən, Şuşam" mövzularında yazılar "Vətənpərvərlik" rubrikasında yerləşdirilib.

"Araşdırma" rubrikasında "Yaşadığımız həqiqətlər doğrudurmu?! (Platonun mağara istiarəsi - ideyalar aləmi)", "Quranda və Platonda təsvir edilən itmiş şəhər - Atlantida", "Psixoanaliz nəzəriyyəsinin tarixi arxa planı: Ziqmund Freyd nümunəsində", "Əs-sirə" əsərində Həzrət Osman ilə əlaqəli hissənin dəyərləndirilməsi" başlıqlı məqalələr verilib.

"Baxış bucağı" rubrikasında "Dövlətçilik şüuru" başlıqlı məqalə yer alıb.

"İslamda Qurban ibadəti"; "İslamda qəbir ziyarəti"; "Quran Quranı tərif edir", "Kərbəla", "Deizm, ateizm və yeni kəlam elmi" sərlövhəli yazılar "İslam tarixi" rubrikasında dərc olunub.

"Abidələrimiz" rubrikası altında "Qarabağ türbələri" başlıqlı yazı dərc olunub.

Aİİ tələbə və məzunlarının "Ailədə dini təlim-tərbiyə" və "Azərbaycan İlahiyyat İnstitutu haqqında təəssüratlarım" başlıqlı məqalələri "Mənəviyyat" və "Məzun sözü" rubrikalarında dərc olunub.

Aİİ tələbələrinin "Sərin bir yaz axşamı", "Allahı tanı", "Mən Şəhid anasıyam" və "Xalqıma" adlı şeirləri isə "Ədəbiyyat" rubrikasında yer alıb.

***"Azərbaycan"***







# İşğaldan azad olunmuş ərazilərdə könüllü proqramına start verilir

2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan əsgərinin rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qalib gəlməklə ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Şanlı tariximizin ən parlaq səhifələrindən olan bu Zəfər nəticəsində insanlarımız uzun illər həsrətini çəkdikləri doğma ata-baba yurdlarına qayıtmaq imkanı əldə ediblər.

Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında böyük zəfərdə gənclərin həlledici rolunu vurğulamış və Azərbaycan gəncinin Böyük qayıdış prosesində iştirakının əhəmiyyətini qeyd etmişdir. Gənclərin öz doğma torpaqlarının bərpasında oynayacaqları rol çox önəmlidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb olunması çağırışına uyğun olaraq, Prezidentin Qarabağ İqtisadi Rayonu üzrə Xüsusi Nümayəndəliyi və Gənclər Fondunun dəstəyi ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı işğaldan azad olunmuş ərazilərdə könüllü proqramına gənclərin qəbuluna başlayır.

AZƏRTAC xəbər verir ki, proqramın əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən oradan olan gənclərin öz doğma torpaqlarında yenidənqurma və bərpa işlərində və eləcə də bölgənin tarixi, mədəniyyəti və xalqımızın irsinin təbliğində iştirakını təşviq etmək və gənclərin azad olunmuş ərazilərə qayıdışına töhfə verməkdir. Proqramın ilkin olaraq Ağdam rayonunun işğaldan azad olunmuş ərazilərində həyata keçirilməsi və tədricən digər rayonları da əhatə etməsi nəzərdə tutulur.

Proqram çərçivəsində könüllülər Ağdam rayonu ərazisində müxtəlif könüllü fəaliyyətlərinə, o cümlədən mütəmadi olaraq Ağdamda keçiriləcək tədbirlərin təşkilində iştirak, Ağdama səfər edən yerli və xarici qonaqlarla iş, bərpa və yenidənqurma işlərinə dəstək, qayıdışa hazırlıq və məskunlaşmaya dəstək və Azərbaycan Respublikası Prezidentinin Qarabağ İqtisadi Rayonu üzrə Xüsusi Nümayəndəliyinə müxtəlif fəaliyyət istiqamətləri üzrə könüllü dəstəyinin göstərilməsinə cəlb olunacaqlar.

Proqrama qoşulmaq istəyən 18-29 yaşarası, əslən Ağdam rayonundan olan hər bir gənc təhsil səviyyəsindən asılı olmayaraq agdam.konullu.az veb-səhifəsi vasitəsilə qeydiyyatdan keçə bilər.

Son müraciət tarixi 17 sentyabr saat 23:59-dur.

# Türkiyədə keçirilən mədəniyyət və incəsənət festivalında respublikamızı Şirvan şəhərinin nümayəndələri təmsil ediblər

Ankara şəhəri Etimesgut Bələdiyyəsi türk dünyasında qardaşlıq, birlik və mədəni əlaqələri inkişaf etdirmək, ortaq türk mədəniyyətini dünyaya tanıtmaq məqsədilə 26 avqust - 4 sentyabr tarixlərində türkdilli dövlətləri təmsil edən mədəniyyət nümayəndələrinin iştirakı ilə "Beynəlxalq Anadolu Günləri 24" adlı Mədəniyyət və İncəsənət Festivalı təşkil edib.

Türkiyənin Ankara Etimesgut Bələdiyyəsi ilə Azərbaycan Respublikasının Şirvan Şəhər Bələdiyyəsi 2011-ci il iyul ayından etibarən qardaşlaşmış bələdiyyələr olaraq möhkəm əlaqələr qurmuşdur. Bu qardaşlığın davamı olaraq hər il olduğu kimi, bu il də festivalın sonuncu günü keçirilən Azərbaycan gecəsində Şirvan Şəhər İcra Hakimiyyəti, Şirvan Şəhər Bələdiyyəsi və mədəniyyət işçilərindən ibarət olan nümayəndə heyəti iştirak edib. Şəhərin mədəniyyət işçiləri milli mədəniyyətimizi əks etdirən xalq rəqsləri, xalq mahnılarından ibarət rəngarəng proqramla çıxış ediblər. Festivalda nümayəndə heyətimiz tərəfindən milli atributlarımızı özündə əks etdirən eksponatlar və milli mətbəx nümunələrimiz nümayiş olunub.

Ankara şəhəri Etimesgut Bələdiyyəsinin sədri Ənvər Dəmirəl festivalın məqsədinin türk millətinin birliyini, həmrəyliyini və qardaşlığını möhkəmləndirmək olduğunu və türk coğrafiyasında icmaların mədəniyyətini və sənətini yaşatmaq istədiklərini bildirib.

Festivalda Azərbaycan Respublikasının Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov, Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradov çıxış edərək Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının yaşadığını və hər iki dövlət tərəfindən bu dostluğa və qardaşlığa dəyər verildiyini vurğulayıblar. Azərbaycan-Türkiyə münasibətlərini ən yüksək formada davam etdirdiyinə, bu il də Azərbaycan nümayəndə heyətinin iştirakına şərait yaratdığına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Ölkəmizdə aparılan qurucluq işlərindən, keçirilən beynəlxalq miqyaslı tədbirlərdən bəhs edərək bu cür tədbirlərin keçirilməsinin ölkələrarası mədəni əlaqələrin daha da inkişaf etməsində mühüm əhəmiyyəti olduğunu nəzərə çarpdırıblar. Yerli bələdiyyə başkanına onlara göstərilən doğma münasibətə görə təşəkkürlərini bildiriblər və hər bir azərbaycanlının qəlbində xüsusi yeri olan "Qarabağ" xalçasını Ənvər Dəmirələ təqdim ediblər.

Ankara Etimesgut Bələdiyyə Başkanı Ənvər Dəmirəl bu əlaqələrin daha da dərinləşməsini arzulamış və simvolik olaraq nümayəndə heyətinə hədiyyələrini təqdim etmişdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# SOCAR Ukraynada təcili tibbi yardım, Fövqəladə Hallar Dövlət Xidmətinin avtomobillərini 200 min litrdən çox pulsuz yanacaqla təmin edib

"SOCAR Energy Ukraine" müharibə başlayandan bəri Ukraynada təcili tibbi yardım, Fövqəladə Hallar Dövlət Xidmətinin avtomobillərini 200 min litrdən çox pulsuz yanacaqla təmin edib.

Bu barədə AZƏRTAC-a "SOCAR Energy Ukraine" şirkətindən məlumat verilib.

Məlumata görə, bu aksiya davam etdirilir, Səhiyyə Nazirliyi və Fövqəladə Hallar Dövlət Xidməti sifarişi olduğu halda, onlar pulsuz yanacaqla təmin edilirlər. Müharibə başlayandan bəri "SOCAR Energy Ukraine"nin yanacaqdoldurma məntəqələrində dağıntı yoxdur. Xarkov vilayətində altı məntəqədən dördünün işi təhlükəsizliyə görə dayandırılıb. Digər yanacaqdoldurma məntəqələri işləyir.

Qeyd edək ki, hazırda Ukraynada "SOCAR Energy Ukraine"nin 57 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir.

# Vahid əlaqələndirmə mərkəzlərində 53 mindən çox şəhid ailəsi üzvünə və müharibə veteranına xidmət göstərilib

Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə yaradılan vahid əlaqələndirmə mərkəzlərində ötən dövrdə 53,6 min şəxsə xidmət göstərilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, vahid əlaqələndirmə mərkəzlərində şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya, müalicə, müayinə və s. üzrə xidmətlər təqdim edilir.

Hazırda Bakı şəhərindəki və Abşeron rayonundakı DOST mərkəzlərində, həmçinin Gəncə şəhərində, Masallı, Ucar, Şəmkir, Qusar və Salyan rayonlarında ümumilikdə 48 rayon və şəhər üzrə xidmət göstərən 11 vahid əlaqələndirmə mərkəzi fəaliyyət göstərir. Həmin mərkəzlərdə 53 qurum üzrə 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ və şəffaf, vətəndaş məmnunluğu prinsipi əsasında təqdim edilir.

Həmin qurumların sırasına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və 48 rayon (şəhər) icra hakimiyyəti daxildir.

# Laçında mülki şirkətə məxsus ekskavator atəşə tutulub

Sentyabrın 7-si saat 08:10-dan 12:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.




Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, eyni zamanda qeyd olunan istiqamətdə bölmələrimizin təminat yollarının çəkilməsi məqsədilə yol işləri aparan mülki şirkətə məxsus texnika da atəşə məruz qalıb.

Şirkətin texnikasına zərər dəysə də, xəsarət alan olmayıb. Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarının qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb.

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır. Bildiririk ki, dövlət sərhədində yaradılan istənilən qarşıdurmanın nəticələrinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Azərbaycan balı təbiiliyi və keyfiyyətinə görə dünyada 3-cü olub

Türkiyənin İstanbul şəhərində Arıçılıq Assosiasiyalarının Beynəlxalq Federasiyasının (APİMONDİA) 47-ci Konqresi keçirilib. Tədbirdə ölkəmizi Arıçılıq Assosiasiyasının, Peşəkar Arıçılar Birliyinin 22 nəfərdən ibarət üzvi təmsil edib.

Konqresə arıçılarla yanaşı, mütəxəssislər, sahibkarlar, texniki işçilər və rəsmi şəxslər də daxil olmaqla dünyanın 44 ölkəsindən 161 iştirakçı qatılıb. Konqresdə arıçılığın inkişafı ilə bağlı müzakirələr aparılıb, arıçılıq məhsullarının sərgisi keçirilib, istehsal olunan arı məhsullarının müsabiqəsi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, sərgidə Azərbaycan arıçıları milli pavilyonda öz məhsullarını nümayiş etdiriblər. Ziyarətçilərə Azərbaycanın genofondu olan Bozdağ Qafqaz arısı, eyni zamanda arıçılığın inkişafı ilə bağlı dövlət dəstəyi barədə tədbir iştirakçılarına geniş məlumatlar verilib. Pavilyonda ziyarətçilərə Azərbaycan balının dadı, ətri və özəllikləri, bal nümunələri təqdim olunub.

APİMONDİA-nın strategiyasına uyğun olaraq konqresdə iştirak edən ölkələr öz məhsullarını müsabiqəyə çıxararaq yarışda iştirak ediblər. Azərbaycan istehsalı olan arıçılıq məhsulları da müsabiqəyə təqdim olunub. Müsabiqədə ballar 7 ölkədən seçilmiş 42 nəfərlik münsiflər heyəti tərəfindən dəyərləndirilib. Balların təbiiliyi, keyfiyyəti, nəmliyi, mənşəyi, tərkibində antibiotiklər və digər qalıqların olub-olmaması yoxlanılıb, görünüşü, dadı, qoxusu, ətri qiymətləndirilib.

VII Azərbaycan Arıçılıq Konfransındakı bal müsabiqəsində 1-ci və 2-ci yer olmaqla, 5 medal qazanan "Qinyətoğulları" şirkəti bu dəfə dünya səviyyəsində 3-cü yeri tutaraq bürünc medala layiq görülüb.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
### Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri işlərinin satın alınması ilə bağlı
### *açıq tender elan edir*

Respublika üzrə bir sıra təhsil müəssisələrinin cari təmiri işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:
Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48.

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1500,00 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, icra probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi-texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *AZS İSO 9001:2020; AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları;*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **11 oktyabr 2022-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **19 oktyabr 2022-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **20 oktyabr 2022-ci il saat 15:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***




# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin satın alınması ilə bağlı 21 iyul 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalı və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 29 avqust 2022-ci il tarixli qərarına əsasən "ESTET" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən elan edilmiş aşağıdakı kotirovka sorğuları Satınalmalar komissiyasının 06 sentyabr 2022-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir:

- Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki xidmətin satın alınması;
- Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan lift qurğularına texniki xidmətin satın alınması;
- Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan lift qurğuları üçün zəruri ehtiyat hissələrinin satın alınması.

***Satınalmalar komissiyası***

# "Köhlən atlar" "alman maşını"na qarşı

## Bu gün "Qarabağ" Frayburqda Avropa Liqasında ilk oyununa çıxacaq

Bu gün Ağdamın "Qarabağ" klubu UEFA Avropa Liqasının G qrupunda mübarizəyə qoşulacaq. Komandamız ilk turda Almaniyada "Frayburq"un qonağı olacaq. Tribunalarda anşlaq olacaq, ekran qarşısında milyonların qəlbi "Qarabağ"la döyünəcək.

**UEFA Avropa Liqası**
**G qrupu, 1-ci tur**

23:00 "Frayburq"(Almaniya) - **"Qarabağ" (Azərbaycan)**
***Baş hakim:*** Erik Lambrexts (Belçika)
*Frayburq, "Europa-Park" Stadionu*



Bəs "Qarabağ"ı çətin səfər matçında nələr gözləyə bilər ?

Çox güman ki, 4-3-3 oyun formatı ilə meydançaya çıxacağı gözlənilən komandamız müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə çox diqqətli olmalıdır. Xüsusilə Almaniya təmsilçisində cinahlarda oynayan futbolçuların çox sürətli keçidləri fonunda komandamız müdafiə xəttində daha diqqətli olmalıdır. "Qarabağ"da sağ və sol cinah müdafiəçiləri rəqibin hücumları zamanı mərkəzə doğru çəkilərək boş zona buraxmamalıdır.

Futbolçularının ümumi dəyəri 150 milyon avrodan çox olan "Frayburq" doğma meydan amilini də nəzərə alaraq ilk yarım saat ərzində oyunu meydançanın "Qarabağ"a aid hissəsində keçirərək daha erkən qol vurmağa çalışacaq ki, qarşılaşmaya nəzarəti tam ələ almaq imkanı qazansın. Bunun qarşısını almaq üçün isə mütləq həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli olmaq lazımdır.

Frayburqun eyniadlı klubu hücumlar zamanı 6-7 nəfərlə çoxala bilirlər. Qeyd edək ki, Kristian Ştrayxın baş məşqçisi olduğu komandada Rolan Şallainin olmaması böyük üstünlükdür. Çünki 2-ci və 3-cü zonaya keçid oyununda daha sürətli və texnikalı olan futbolçuya qarşı mübarizə aparmaq çətin olacaqdı. Amma bütün bunlara baxmayaraq, hücumda Nils Petersen kimi də təhlükəli və hava toplarında sərrast olan hücumçuları da var.

4-4-2 oyun formatına üstünlük verən Almaniya klubu matç içərisində gedişata görə 4-2-2-2 sisteminə də keçə bilir. Hücuma keçidlərdə 2-3-5 oyun planına da üstünlük verilir. "Frayburq" meydançada oyunçu paylaşımı, mövqe seçimi və sığortalamasını mükəmməl həyata keçirir. Xüsusilə komandada sağ və sol cinah müdafiəçiləri ilə mərkəz müdafiəçiləri arasında boş zonanı blok etmək kifayət qədər yaxşı alınır.

Lakin top rəqibdə olarkən komanda şəklində topun olduğu zonaya çəkilməsi nəticəsində cinahlar boş qalır. Bundan istifadə etməklə uzun diaqonal ötürmələrlə "Frayburq"u azlıqda yaxalamaq olar. Xüsusilə komandamızın heyətində Marko Yankoviçin bu keçid oyunlarında performansı daha çox olmalıdır. Bu ötürmələr fonunda Zubir və Kadiyə yaxşı fürsətlər yarana bilər.

Unutmayaq ki, Qara Qarayevlə Yankoviç bir-birilərini çox yaxşı idarə etməlidirlər. Meydanda dağıdıcı funksiyanı yerinə yetirən Qara qazandığı topu tez bir zamanda Ozobiç və ya Yankoviçə çatdırmalıdır. Monteneqrolu yarımmüdafiəçinin meydanda olmağı 3-cü zonada həm Kadi, həm də Zubir üçün əlavə üstünlüklər qazandırır. Belə ki, top rəqibdə olarkən 1-ci və ya 2-ci zonada bu oyunçuların üzərilərinə yük çox da düşmür.

Əlavə edək ki, davamlı pressinq edən, qısa ötürmələrə üstünlük verən Almaniya klubu standart vəziyyətlərdə təhlükəlidir. Bu zaman Vinçenso Qrifonun uzaqdan qapını nişan alan təhlükəli zərbələri var. Lakin qapıçıları Mark Flenkenin uzaqdan vurulan zərbələr zamanı topa reaksiyası da istənilən səviyyədə deyil. "Qarabağ"da Ozobiç bu fonda uzaqdan zərbələri ilə komandamıza qol imkanları yaratmaq potensialına malik ola bilər.

Kristian Günterin cinahlardan etdiyi uzun ötürmələr zamanı qapıçımız Şahruddin daha çox diqqətli olmalıdır. Çünki bu çıxışlarda adətən kobud səhvlərlə yadda qalan millimizin üzvünə bu barədə məşqçilər korpusu tərəfindən ciddi tövsiyələr olmalıdır.

Hücumda ikili mübarizələrdə daha çevik görünən Mixael Qriqoriçə qarşı mərkəz müdafiəçilərimiz daha təmkinli, kobudluğa yol vermədən mübarizə aparmalıdırlar. Çünki ani toxunuş qapımıza penaltinin təyin olunması ilə yadda qala bilər.

Ağdam təmsilçisi rəqibin tempini aşağı salmaq üçün daha çox qısa ötürmələrə üstünlük verməlidir. Daha yüksək fiziki hazırlığın tələb olunduğu oyun planı fonunda rəqibə boş zona yaratmamağa çalışılmalıdır. Bu oyun planı işə düşərsə, komandamız rəqibə qarşı üstünlük əldə edə bilər. Abdulla Zubirin tez-tez cinahları dəyişməsi də komandamızın lehinə ola bilər. Amma unutmayaq ki, İbrahima Vadjinin komandanı tərk etməsindən sonra bu zonada xüsusilə topsuz oyunlarda rəqib müdafiəçiləri üzərinə çəkməsini Ramil Şeydayevlə Ovusu yerinə yetirə biləcəklərmi?

Hər halda bu matç komandamız üçün çox çətin sınaqdır. Amma ümid edirik ki, "Qarabağ" "Frayburq"a asan təslim olmayacaq.

Uğurlar, "Qarabağ"!

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Vladimir Putin qərarını dəyişir?

## Ukraynadan taxılın daşınması məhdudlaşdırıla bilər



Rusiya Prezidenti Vladimir Putin Vladivostok şəhərində keçirilən Şərq İqtisadi Forumunun (ŞİF) plenar iclasında çıxışı zamanı Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla Ukraynadan Avropaya taxıl və ərzaq ixracının məhdudlaşdırılması imkanını müzakirə etmək niyyətində olduğunu bildirib. Onun fikrincə, həmin taxıl ehtiyacı olan kasıb ölkələrə göndərilmir.

Rusiya lideri qeyd edib ki, bu günə qədər "taxıl müqaviləsi" çərçivəsində Ukraynadan ixrac edilən ərzaq məhsullarının yalnız 3 faizi ən yoxsul ölkələrə göndərilib: "Biz Ukrayna taxılının ixracı üçün şərait yaratdıq. Türkiyəni vasitəçi ölkə kimi istisna etsək, Ukraynadan ixrac olunan taxıl yoxsul ölkələrə deyil, Avropa İttifaqı ölkələrinə göndərilir".

Onun sözlərinə görə, ehtiyacı olan ölkələrə dəstək məqsədilə bağlanan "taxıl müqaviləsi" çərçivəsində gəmilərin əksəriyyəti Avropa İttifaqı ölkələrinə çatdırılıb.

Ehtiyacı olan ölkələrə yardımı əhatə edən BMT-nin Ümumdünya Ərzaq Proqramı çərçivəsində 87 gəmidən yalnız 2-si yüklənib. Onlar 2 milyon tondan 60 min ton ərzaq daşıyıb ki, bu da cəmi 3 faiz təşkil edir. Yəni, inkişaf etməkdə olan ölkələrə yalnız iki gəmi taxıl gedib.

Putin qeyd edib ki, Avropa ölkələrinin hərəkətləri müstəmləkəçilərin hərəkətlərinə bənzəyir, inkişaf etməkdə olan ölkələr isə sadəcə bir daha aldadılıb: "Bu yanaşma ilə dünyada ərzaq problemlərinin miqyası daha da artacaq. Bu marşrutla taxıl və digər ərzaqların ixracını məhdudlaşdırmaq barədə düşünməyə dəyər. Bu barədə Türkiyə Prezidenti Rəcəb Ərdoğanla mütləq məsləhətləşəcəyəm".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Elnur Hacıyevə əzizi

**VİLAYƏT MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Nərgiz Həsənovaya qardaşı

**SALEH HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi iş yoldaşları Zəkafət Axundovaya qayınanası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6484
Sifariş 2513
Qiyməti 40 qəpik